# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 11

*Milli Məclisin iclas salonu.*
*8 may 2020-ci il*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***S.Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 112 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.17 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "GUAM – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsində dəyişikliklər edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
2. Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).
3. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

5. "Hərbi qulluqçuların statusu haqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

7. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçün-

cü oxunuş).

8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

9. Azərbaycan Respublikasının 1996-cı il 17 mart tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

10. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

11. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

13. "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında" və "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbay-

can Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

14. "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

15. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

16. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

17. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

18. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

**Qeyd.** 2020-ci ilin mart ayında Ümumdünya Səhiyyə Təşkilatı COVID-19 koronavirusunun törətdiyi yoluxucu xəstəliyi pandemiya elan etmişdir. Bu pandemiyaya qarşı ölkəmizdə həyata keçirilən tədbirlərlə əlaqədar Milli Məclisin 21 deputatı plenar iclas salonunun lojasında əyləşdiyinə görə əl qaldırmaqla səs vermişdir.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əsra Məmmədli, Səfa Mirzəyev, Fazil Mustafa, Musa Quliyev, Jalə Əliyeva, Soltan Məmmədov, Qənirə Paşayeva, Tahir Kərimli, Siyavuş Novruzov, Naqif Həmzəyev, Sahib Alıyev, Məlahət İbrahimqızı, Cavid Osmanov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**1. "GUAM – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsində dəyişikliklər edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Fazil Mustafa, Əli Hüseynli, Sabir Rüstəmxanlı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**2. Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**3. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**4. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**5. "Hərbi qulluqçuların statusu haqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**6. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**7. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haq-**

**qında” və “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Siyavuş Novruzov, Nizami Cəfərov, Qüdrət Həsənquliyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qüdrət Həsənquliyev, Qənirə Paşayeva, Zahid Oruc, Tahir Kərimli, Aydın Hüseynov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının 1996-cı il 17 mart tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**10. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Qənirə Paşayeva, Aqiyə Naxçıvanlı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
| Lehinə | 100 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə, Razi Nurullayev, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**12. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| Lehinə | 108 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**13. "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında" və "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Razi Nurullayev, Fəzail İbrahimli, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**14. "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Jalə Əliyeva, Sabir Rüstəmxanlı, Hicran Hüseynova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**15. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**16. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**17. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Nigar Arpadarai, Müşfiq Cəfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə, Razi Nurullayev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
|---|---|
| Lehinə | 107 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** Maddə 1 qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri S.QAFAROVA**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*8 may 2020-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən**. Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri! Hörmətli həmkarlar, bizim bugünkü iclasımız həm kədərli, həm də əlamətdar hadisələr ərəfəsində keçirilir. Bu gün mayın 8-də Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin 28-ci ildönümü tamam olur.

Şuşa şəhərinin işğalı Dağlıq Qarabağ bölgəsini Azərbaycandan qoparıb Ermənistana birləşdirmək və yerli azərbaycanlı əhalini ata-baba torpaqlarından qovub çıxarmaq üçün həyata keçirilən hərbi təcavüzün bir mərhələsini təşkil etmişdir. Tarixən bütün Qarabağın mərkəzi şəhəri olan Şuşanın işğalı ilə erməni şovinistləri Azərbaycanın böyük bir bölgəsinin tam etnik təmizlənməsini başa çatdırmışlar.

Ermənistandan və Azərbaycanın işğal edilmiş ərazilərindən didərgin salınmış 1 milyondan çox soydaşımızın 22 min nəfəri Şuşa sakinidir. Onlardan biri bu gün bizimlə bərabərdir. Əsra Məmmədli Şuşada doğulmasa da, ruhən

Şuşaya bağlıdır və doğma yurdunun həsrəti ilə yaşayır. Mən istərdim ki, biz onu dinləyək.

**Ə.Məmmədli**, *Şuşalı məcburi köçkün ailəsinin üzvü.*

Hörmətli Sahibə xanım, hörmətli bizim millət vəkillərimiz! Mən Şuşadanam, atam da, anam da, babam da, ulu babalarım da Şuşadandır. Babalarımın əcdadları da Şuşadandır. Amma təəssüf ki, mən Şuşada doğulmamışam. Nəinki doğulmamışam, heç Şuşanı görməmişəm də. Sizcə, bu, necə hissdir? Mən Şuşamız barədə yalnız ata-anamın və nənə-babalarımın dedikləri qədər bilirəm. Bu isə o deməkdir ki, mən də atam və ulu babalarım qədər şuşalıyam.

Bilirəm ki, məni çox yaxşı anlayırsınız, amma məni hiss etməyinizi istəyirəm. Mənim səsimi dünyaya çatdırın, çatdırın ki, mənim çəkdiyim bütün ağrı-acını, yaşadığım hissləri digər ölkələr də yaxşı anlasınlar, yaxşı duysunlar. Qoy, duysunlar ki, şuşalı olub, Şuşanı görməmişəm.

Şuşalıyam, fəqət, anam mənə Şuşada lay-lay oxumayıb. Şuşalıyam, lakin Cıdır düzündə gül-çiçəklər arasında ayaqyalın qaçmaq da mənə nəsib olmayıb. Şuşalıyam, Şuşanın qarlı, dumanlı dağlarını görməmişəm. Şuşalıyam, Şuşanın bulaqlarının suyunu içməmişəm. Şuşalıyam, Şuşada bitən xarı bülbülü görməmişəm. Şuşalıyam, Şuşada Qarabağ şikəstəsini eşitməmişəm.

Hiss edirsiniz məni? Qoy, dünya da anlasın və hiss etsin ki, Şuşa mənim doğma torpağımdır. Qoy, bütün dünya, hamı anlasın və hiss etsin ki, Şuşa Azərbaycandır, Qarabağ Azərbaycandır! Torpaq müzakirə olunmur. *(Alqışlar.)*

**Sədrlik edən**. Çox sağ olun, Əsra. Hörmətli həmkarlar, düşünürəm ki, bu sözlər bizim hamımızı təsirləndirdi.

Hörmətli həmkarlar, biz əminik ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin

həyata keçirdiyi uzaqgörən və qətiyyətli siyasət nəticəsində ölkəmizin ərazi bütövlüyü tezliklə bərpa ediləcək, bütün Qarabağ bölgəsi, o cümlədən onun nadir incisi olan Şuşa şəhəri də işğaldan azad ediləcək. Qaçqın və köçkün soydaşlarımız doğma yurdlarına qayıdacaq, bölgədə uzunmüddətli möhkəm sülh bərqərar olacaqdır.

Hörmətli həmkarlar, indi isə, xahiş edirəm, Şuşa şəhərinin müdafiəsi zamanı həlak olan şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək. *(Hamı ayağa qalxır.)*

Allah şəhidlərimizə rəhmət eləsin.

Hörmətli həmkarlar, sabah mayın 9-da biz faşizm üzərində Qələbənin 75 illiyini qeyd edəcəyik. Qələbənin əldə edilməsinə Azərbaycan xalqı böyük töhfələr vermişdir. Bu məqamda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bir çıxışında söylədiyi fikri xatırlatmaq istəyirəm: "Tarix bu gün də bilməlidir ki, Azərbaycanın II Dünya müharibəsində xidmətləri, fəaliyyəti və rolu çox böyük olmuşdur".

Müharibə dövründə Azərbaycandan 680 mindən çox adam cəbhəyə çağrılmışdır və deyim ki, onların 40 min nəfəri cəbhəyə könüllü getmişdir. 320 minə qədər həmvətənimiz döyüş meydanlarından geriyə qayıtmamışdılar. Müharibə illərində əsgərlərimiz böyük qəhrəmanlıq göstərmişlər. Azərbaycanlılar 400 mindən çox döyüş ordeni və medalı ilə təltif edilmişlər. 120 nəfərdən çox həmvətənimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdur. Azərbaycanda 5 milli diviziya təşkil edilmişdir və bu diviziyalardan biri, məşhur 416-cı Azərbaycan Taqanroq diviziyası Berlinə ilk daxil olan hərbi birliklərin sırasında olmuşdur.

Azərbaycanın oğul və qızları faşizmə qarşı müqavimət hərəkatında da fəal iştirak etmişlər. Onlar müxtəlif ölkələrdə partizan dəstələrində vuruşmuşlar və təkcə Fransanın

antifaşist hərəkatında 3 mindən çox azərbaycanlı iştirak etmişdir.

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı ordunun ehtiyaclarına uyğunlaşdırılmışdı. Bakıdan cəbhəyə 75 milyon ton neft və 22 milyon ton benzin göndərilmişdir. O dövrdə döyüşlərdə iştirak edən hər beş təyyarədən, tankdan, avtomaşından, hərbi gəmidən 4-ü Azərbaycanda istehsal edilmiş yanacaqla işləyirdi. Azərbaycan müəssisələrində 130 növ silah, sursat və başqa hərbi ləvazimat istehsal edilirdi.

Hörmətli həmkarlar, bu gün müharibə veteranları cəmiyyətimizin ən hörmətli üzvləri kimi dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunmuşlar. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə onlara, eləcə də müharibədə həlak olmuş və ya vəfat etmiş döyüşçülərin dul arvadlarına və arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə mütəmadi maddi yardım verilir. Bununla yanaşı, müharibə veteranları mənzillə, fərdi minik avtomobilləri ilə təmin olunur və digər güzəştlərdən də istifadə edirlər.

Hörmətli həmkarlar, Qələbə günü münasibəti ilə mən müharibə veteranlarını, bütün xalqımızı ürəkdən təbrik edirəm, II Dünya müharibəsində qəhrəmanlıqla vuruşmuş, arxa cəbhədə fədakarlıq göstərmiş Azərbaycan xalqının oğul və qızlarına minnətdarlıq duyğularımı ifadə edirəm. Biz əminik ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə yaxın zamanda Azərbaycan tarixinə yeni bir qələbə günü – erməni faşizminin məğlub edilməsi, Qarabağın azad edilməsi, haqq-ədalətin bərpa olunması ilə bağlı bayram günü də daxil olacaqdır. *(Alqışlar.)*

Hörmətli həmkarlar, may ayının 10-da ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ili tamam ola-

caqdır. Heydər Əliyev Azərbaycan xalqının öz tarixi ərzində yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Xalqımızın yaradıcı zəkasını və enerjisini təcəssüm etdirən ulu öndər millətimizin şərəf və ləyaqət rəmzinə çevrilmişdir. Onun sayəsində xalqımız əvvəlcə dövlət müstəqilliyinin möhkəm təməlini yaratmış, sonra isə müstəqil milli dövlətçiliyini qoruyub saxlamış və ardıcıl inkişaf yoluna çıxarmışdır. 1960-cı illərin axırlarında və 1990-cı illərin əvvəllərində ulu öndərin hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın çox ağır sınaqlara çəkildiyi dövrlərə təsadüf etmişdir. Hər dəfə də Heydər Əliyev ona bəslənən ümidləri doğruldaraq, xilaskarlıq və quruculuq missiyasını uğurla həyata keçirmiş və əsl ümummilli lider olduğunu sübuta yetirmişdir.

Ulu öndərin zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövləti bu gün etibarlı əllərdədir. Onun başladığı bütün işlər eyni əzm və iradə ilə davam etdirilir. Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə çevirmişdir. Azərbaycanın xoşbəxt gələcəyi İlham Əliyev tərəfindən uğurla davam etdirilən Heydər Əliyev siyasi xətti ilə bağlıdır. Ulu öndərin qüdrətli zəkasından güc almış inkişaf strategiyası İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqillik yollarında ardıcıl irəliləməsini, xalqımızın daha firavan günlərə qovuşmasını təmin edir.

Hörmətli həmkarlar, indi isə, xahiş edirəm, iclasımıza başlayaq və qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.17 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

Şakir müəllim, Sizdə vəziyyət necədir?

**Ş.Şabanov**, *Milli Məclis Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsi müdirinin müavini*.

Təşəkkür edirəm, xanım Sədr. 21 deputat qeydiyyatdan keçmişdir.

**Sədrlik edən**. Çox sağ olun, yetərsay var və iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına da münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov**. 20 deputat lehinə səs vermişdir.

**Sədrlik edən**. Çox sağ olun, gündəlik qəbul olundu.

Gündəliyin müzakirəsinə keçməmişdən əvvəl, Səfa müəllim, mən Sizdən xahiş edirəm, məlumat verin, yuxarıda oturanlar necə yazılacaqlar, buyurun.

**S.Mirzəyev**, *Milli Məclis Aparatının rəhbəri*.

Təşəkkür edirəm, xanım Sədr. Keçən iclasda bu məsələ qalxdı. Mən istəyirəm, aydınlıq gətirim. Pandemiya dövründə sanitariya normaları ilə əlaqədar müvəqqəti olaraq yuxarıda əyləşən bizim hörmətli deputatlar çıxışlara yazılmaq üçün orada qurulmuş beş aparatdan istifadə edə bilərlər. Səsvermə üçün nəzərdə tutulan kartları aparatlara

daxil etməklə, onlar çıxışa yazıla bilərlər və bunu, eyni zamanda, növbə ilə də eləyə bilərlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən**. Çox sağ olun, Səfa müəllim. Mən düşünürəm ki, yuxarıda oturan hörmətli həmkarlarımız biləcəklər, hansı suala müdaxilə eləmək istəyirlər, hansı suala aydınlıq gətirmək, ya da müzakirəyə qoşulmaq istəyəcəklər. Şakir müəllim, Siz qabaqcadan gərək soruşasınız. Əgər kimsə istərsə, həmin adamlar yaxınlaşıb yazıla bilərlər. Çox sağ olun.

İndi isə, hörmətli həmkarlar, gündəliyin müzakirəsinə keçirik. Yazılanlar, çıxış eləmək istəyənlər varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Var? Məndə burada görünmür. Yoxdur.

Fazil Mustafa. Buyurun, Fazil müəllim.

**F.Mustafa**. Hörmətli xanım Sədr, hörmətli millət vəkilləri. Düşünürəm ki, bu günün aktual problemlərindən biri sosial şəbəkələrdə Milli Məclisin təsdiq etdiyi İran–Azərbaycan münasibətlərini əks etdirən sazişin açıqlanması ilə onun ünvanına qərəzli fikirlərin bildirilməsidir. Düşünürəm ki, bizim hökumət təmsilçiləri bu məsələyə lazımi səviyyədə aydınlıq gətirmədiklərinə görə, sanki Milli Məclisdə bu sazişi qəbul eləyənlər Azərbaycanın milli maraqlarını, dövlət maraqlarını düşünməyiblər, belə bir qərar qəbul ediblər kimi təəssürat yaranır. Mən ondan sonra bu sazişlə bir daha ciddi şəkildə tanış oldum və gördüm ki, Azərbaycan tərəfi orada iş başlatmış İran tərəfi ilə bu sazişi uzun illər müzakirədən sonra bağlamaqda hansı hədəfi əsas götürübdü və sənəddə hansı müddəalar əks olunubdur. Burada qeyd olunur ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunanadək, mövcud şəraitdə fors-major halları istisna olmaqla, İran tərəfi məsuliyyəti öz üzərinə

götürür və xərclər də Birgə Texniki Komissiya tərəfindən təsdiq olunandan sonra Azərbaycanın payına düşən hissə İran tərəfinə ödəniləcəkdir. Burada su ehtiyatlarının istismarının müvəqqəti və daimi olaraq üçüncü ölkənin fiziki və hüquqi şəxslərinə verilməsi İrana qadağan edilir. Hər hansı şəkildə bundan istifadə edə bilməz. Digər tərəfdən, bunu ancaq öz marağı, öz ölkəsi üçün istifadə edə bilər. Ora Azərbaycanın işğal olunmuş əraziləri olduğuna görə Azərbaycan İran tərəfinin "Qız Qalası" hidroqovşağın oradan götürəcəyi həcmdə su ehtiyatlarını məhz Mil, Muğan və Bəhramtəpə hidroqovşaqlarında istifadə edə bilər. Sazişdə bütün hallarda Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması prinsipi əsas götürülüb.

Buradan hansı sual çıxır? Psevdopatriotların hücumunu nəzərdə tuturam. Dünən mən onların böyük əksəriyyəti ilə dartışdım, müzakirə apardım və sonra haqlılığı ortaya qoydum ki, bu saziş hər hansı bir şəkildə Azərbaycanın maraqlarına zidd deyil. Burada, sadəcə, problem nədədir? İran özbaşına yol çəkir, İran erməni terroruna dəstək verir. Bu dəstəyi onsuz da verirdi. Biz buna qarşı sözümüzü deyirik, səsimizi qaldırırıq. Amma bu sazişdə buna hər hansı bir şəkildə rəvac verən bir müddəa yoxdur. Nə yol, nə körpü. Bu, özbaşına atılan addımlardır və İran bu addımları atarkən beynəlxalq hüququn prinsiplərini pozur. Bu baxımdan, hesab edirəm ki, bu sazişi bəhanə edərək guya hansısa əməllərin törədilməsi barədə fikir yürütmək yanlışdır.

Mən möhtərəm şeyximizin də müraciəti ilə tanış oldum. Humanitar baxımdan faydalı müraciətdir, amma siyasi baxımdan, məncə, ora bir şey də əlavə olunmalı idi. Bu, odur ki, əgər İran təcridolunma vəziyyətində olarsa, erməni terrorçularına daha çox dəstək verir. Ona görə də...

**Sədrlik edən**. Sağ olun. Musa Quliyev. Buyurun.

**M.Quliyev**. Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. İclasın əvvəlində hörmətli Sahibə xanımın söylədiyi bizim tariximizin kədərli və şərəfli günləri barədə fikirlər, eləcə də ümummilli lider Heydər Əliyevin fəaliyyəti barədə dəyərli sözlərinə görə, hörmətli xanım Sədr, Sizə minnətdarlığımı bildirirəm. O fikirlərin hamısını bölüşürəm və o fikirlər bir daha təsdiq edir ki, həyat mübarizədir və bu mübarizəyə kim daha mütəşəkkil hazırlaşırsa, kim daha hazırlıqlı və cənab Prezidentimizin söylədiyi kimi, birlikdə olursa, onda da qalib gəlir.

Dünən cənab Prezident, ölkənin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva Azərbaycanda ilk modul tipli koronavirusla mübarizə üçün ixtisaslaşmış klinikanın açılışında iştirak etdilər, 200 nəfərin ixtisaslaşmış, yüksək tibbi xidmət ala biləcəyi ilk klinikanın açılışında cənab Prezident olduqca ciddi mesajlar verdi. O mesajlardan da biri əhalimizin koronavirusla mübarizədə dövlətə dəstək verməsi ilə bağlıdır. Cənab Prezidentin rəhbərliyi altında Azərbaycan dövləti gərək olandan da artıq işlər görür və bu da bütün dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Xüsusən Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi Azərbaycanın gördüyü işləri, koronavirusla bağlı apardığı mübarizəni dünya ölkələri üçün örnək göstərir. Amma təəssüf olsun ki, karantin rejiminin yüngülləşməsi və bəzi bölgələrimizdə aradan götürülməsi ilə əlaqədar vətəndaşlarımızda çox ciddi bir sayğısızlıq, məsuliyyətsizlik və biganəlik yaranıbdır. Bu da koronavirus pandemiyasının ölkəmizdə ikinci dalğasının yaranmasına və olduqca ciddi fəsadlara gətirib çıxara bilər.

Cənab Prezidentin çağırışına mən də qoşuluram və

hesab edirəm ki, hörmətli xanım Sədr, Siz də dünən komitə sədrləri ilə video-konfransda bu tövsiyələri bizə verdiniz və hər bir millət vəkili təbliğat işinə ciddi şəkildə qoşulmalıdır. Biz bütün vətəndaşlarımızı səfərbər etməliyik ki, nə qədər ki, virusun vaksini tapılmayıbdır, biz hər birimiz izolyasiya tədbirlərinə ciddi şəkildə əməl etməliyik və koronavirus xəstəliyindən ölən hər bir insanın qarşısında bizim hər birimiz məsuliyyət daşıdığımızı hiss etməliyik. Yəni bizim vətəndaş olaraq məsuliyyətsizliyimiz insanlarımızın xəstələnməsinə və həkimlərimizin əziyyət çəkməsinə gətirib çıxarır. Eyni zamanda, hörmətli millət vəkilləri, mən düşünürəm, bəlkə ehtiyac varsa, biz operativ qərargahla məsləhətləşərək İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə də lazım olan əlavəni edək ki, bu təsirləri daha da artıra bilən və cəzaları sərtləşdirən...

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Musa müəllim, nəzərinizə çatdırım ki, mən dünən bizim onlayn konfransda dediyim sözləri, əslində, hər bir WhatsApp qrupuna yazmışdım. Həm siyasi partiyalar qrupuna, həm komitə və komissiya sədrlərinin qrupuna, həm də bizim yeni seçilən deputatların 20–20 yaratdığı həmin o qrupa. Həmçinin bilirəm ki, Adil müəllim, Siz də mənim adımdan həmin o sözləri müstəqil deputatlar qrupuna çatdırıbsınız. Yəni bütün deputatlar bu mesajları alıb. Mən çox istərdim və yenə də təklif və tövsiyə edirəm ki, hər birimiz harada çıxış ediriksə, bu günlərdə mütləq bu tövsiyələrdən istifadə edib cəmiyyəti, seçicilərimizi məlumatlandıraq.

Jalə xanım Əliyeva. Amma, Jalə xanım, bir dəqiqə. Şakir müəllim, orada, yuxarıda oturanlardan yazılanlar varmı? Neçə nəfərdir?

**Ş.Şabanov.** Tabloda görünür artıq, orada yazılıb. Sol-

tan Məmmədov.

**Sədrlik edən.** Kimlərdir?

**Ş.Şabanov.** 4 nəfərdir.

**Sədrlik edən.** 4 nəfər var. Hörmətli həmkarlar, mən təklif edirəm, 3 nəfərdən bir kim isə yuxarıda yazılanlardan çıxış eləsin? Etiraz eləmirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çünki biz 15 dəqiqə işləmiş başlamışıq. Çox da vaxtımız qalmayacaq. Bəlkə də onlara heç söz çatmayacaq. Mən istəyirəm, yuxarıda oturan hörmətli həmkarlarımız da çıxış eləsin.

Jalə xanım, indi Siz çıxış edirsiniz, sonra isə, Şakir müəllim, növbədə kimdir orada?

**Ş.Şabanov.** Soltan Məmmədov.

**Sədrlik edən.** Soltan Məmmədov çıxış edəcək. Soltan Məmmədov hazırlaşsın. Jalə xanım, buyurun, söz Sizindir.

**J.Əliyeva.** Təşəkkür edirəm, Sahibə xanım. Bir az əvvəl Əsra qızımızın çox kövrək çıxışını ürək ağrısı ilə dinlədik. Mənim səsimi dünyaya çatdırın, dedi, mənim yaşadığım acıları yaşamasınlar, dedi. Qoy, dünya anlasın ki, Qarabağ Azərbaycandır, dedi. Bəli, Əsra qızım, Azərbaycan dövləti bu səsin bütün dünyada duyulması, Qarabağın Azərbaycan olduğunun dünyaya çatdırılması üçün əlindən gələni edir. Ali Baş Komandan ölkə Prezidenti cənab İlham Əliyev bütün qətiyyətini, bütün iradəsini, bütün səylərini bu yolda səfərbər etmişdir. Elə, yeri gəlmişkən, mən onun qətiyyətli mesajlarından birini burada bir daha xatırlatmaq istəyirəm. Prezident İlham Əliyev deyir ki, işğalçı Ermənistan Respublikasının cəhdlərinin heç bir perspektivi yoxdur. Ermənistan tərəfi anlamalıdır ki, ərazilərin işğalı yalnız müvəqqəti xarakter daşıyır. Dağlıq Qarabağ bölgəsi həmişə Azərbaycanın

ayrılmaz hissəsi olub və olacaqdır.

Hörmətli həmkarlar, bu günlərdə biz həm də dünyanın nadir şəxsiyyətlərindən olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 97-ci doğum ilini ölkə və xalq olaraq qeyd edirik. Heydər Əliyevin, sadəcə, Azərbaycanda deyil, yaşadıqları ölkələrdə həmvətənlərimiz tərəfindən bayram kimi qeyd olunan doğum günləri ümummilli liderin əziz xatirəsinə böyük ehtiramın və məhəbbətin ifadəsidir. Heydər Əliyev vətənin ağır günündə onun imdadına yetişən, xalqının taleyində müstəsna rol oynayan, müqəddəs xilaskarlıq və quruculuq missiyasını qələbə ilə başa vuran siyasət dahisidir. Elə buna görə də bu böyük şəxsiyyətin adı Azərbaycan tarixinə, xalqımızın yaddaşına xilaskar kimi əbədi həkk olunub. Bu gün onun ideyaları Azərbaycanda yaşayır və uğurla inkişaf edir. Bu ideyaların təməlində Azərbaycan dövlətinin daha da güclənməsi, onun müstəqilliyinin qorunması, iqtisadiyyatın inkişafı və xalqın firavan həyatının təmin edilməsi durur.

“Əsl siyasət konkret real iş görməkdən ibarətdir” deyərək, fəaliyyətə başlayan Prezident İlham Əliyev 2003-cü ildə verdiyi vədə sadiq qalaraq bu ideyaları fəaliyyətinin yol göstərəninə çevirərək, inkişafın yeni və uğurlu modelini bütün dünyaya nümayiş etdirməkdədir. Ulu öndər Heydər Əliyev “Azərbaycan dünyaya günəş kimi doğacaq”, deyirdi. Əminik ki, ümummilli liderin bu müqəddəs arzusu da Prezident İlham Əliyevin rəhbərliyi ilə getdiyimiz yolda bizlərə hər zaman yol göstərən olacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Jalə xanım. Soltan Məmmədov, buyurun.

**S.Məmmədov**. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, media nümayəndələri. Bu gün, əlbəttə, Azərbaycan

tarixinin ən ağır günlərindən biridir. Vətənimizin ən dilbər güşələrindən, ən qədim şəhərlərindən biri olan Şuşa şəhərinin işğal edildiyi gündür. Azərbaycan dövlətinin artan gücü, qüdrəti bizə deməyə əsas verir ki, o torpaqlara qayıdacağımız gün uzaqlarda deyil. Şuşa Qarabağdır, Qarabağ isə cənab Prezidentin də dediyi kimi, Azərbaycandır! Azərbaycan Prezidentinin yürütdüyü düşünülmüş siyasət bizi hər gün bu qələbəyə daha da yaxınlaşdırır.

İndi isə icazənizlə çox qısa olaraq koronavirusla mübarizədə gördüyümüz işlər barədə sizinlə bölüşmək istərdim. Hamımıza məlum olduğu kimi, Azərbaycan koronavirus pandemiyasının qarşısının alınması üçün düşünülmüş qabaqlayıcı tədbirlərin həyata keçirilməsi baxımından dünya ölkələrinin bir çoxunu geridə qoyub. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri də Azərbaycanda pandemiyaya qarşı mübarizəni yüksək qiymətləndirirlər. Dünən Azərbaycan Prezidenti cənab İlham Əliyevin ilk modul tipli xəstəxananın açılışında iştirakı Azərbaycan dövlətinin pandemiya ilə mübarizədə qətiyyətli olduğunu və bütün lazımi tədbirləri uğurla həyata keçirdiyini bir daha sübut edir.

Bu gün Azərbaycanda səhiyyə sahəsində görülən işlər həm vətəndaşlarımız, həm də beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Ölkədə 20-dən çox xəstəxana koronaviruslu xəstələrin müalicəsi üçün tam hazır vəziyyətə gətirilmiş, Bakıda açılan 575 çarpayılı yeni klinika ağır koronavirus xəstələrinin müalicəsi üçün açılmışdır. Bu işdə dövlətə dəstək olan özəl sektorda çalışan şirkətlər, qeyri-hökumət təşkilatlarının rolu çox böyükdür.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanımın tapşırığı əsasında ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu

tərəfindən ölkədə 6 avtomat laboratoriya qurulmuşdur. Yüksək keyfiyyətli, lazımi test kitləri alınmışdır. Ölkənin müxtəlif xəstəxanalarında çalışan tibb heyətinin təhlükəsizliyini təmin etmək, eləcə də uşaq evləri, körpələr evi, internat məktəbləri və digər sosial xidmət müəssisələri bütün tələb olunan qoruyucu vasitələrlə təmin olunmuşdur. Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə COVİD-19-a qarşı mübarizə tədbirlərini genişləndirmək üçün Azərbaycan dövləti hesabına Türkiyədə təhsil almış və bu gün Türkiyədə öz fəaliyyətini uğurla davam etdirən 19 Azərbaycanlı həkim hazırda Azərbaycandadır.

Hesab edirəm ki, koronavirus pandemiyası Azərbaycanda son illər ərzində cənab Prezidentin rəhbərliyi altında həyata keçirən davamlı islahatların, insanların sağlamlığının, mahiyyət etibarı ilə həm də ölkənin milli təhlükəsizliyinin təmin olunması baxımından nə qədər vacib olduğunu göstərdi. Bu baxımdan, düşünürəm ki, bəzi bölgələrdə, o cümlədən Bakı ətrafı qəsəbə və kəndlərdə səhiyyə sisteminin daha da gücləndirilməsi, xüsusi ilə təcili tibbi yardım xidmətinin təkmilləşdirilməsi üçün görülməli işlər çoxdur.

Mən bu kürsüdən istifadə edib bir daha xalqımıza müraciət edərək hazırkı durumda qüvvədə olan bütün epidemik davranış qaydalarına əməl etməyə çağırıram. Hər birimiz bu gün pandemiya ilə mübarizədə əldə etdiyimiz uğuru qorumalı və düzgün dövlət siyasəti...

**Sədrlik edən.** Çox sağ olun, Soltan müəllim. Şakir müəllim, 3 nəfər çıxış edəcək. Siyavuş müəllimdən sonra bir nəfər o tərəfdən. Kim olacaq o?

**Ş.Şabanov**. Növbəlik qaydasında Naqif Həmzəyev.

**Sədrlik edən.** Naqif müəllim, Siyavuş müəllimdən

sonra hazırlaşarsınız. Vaxtımızı itirməyək. İndi isə Qənirə Paşayeva. Qənirə xanım, buyurun.

**Q.Paşayeva**. Çox sağ olun. Hörmətli Sədr, hörmətli millət vəkilləri, hörmətli mətbuat və media nümayəndələri. Biz hamımız bu gün Əsra qızımızın çıxışını ağrı ilə dinlədik. Əslində, hər bir azərbaycanlı 28 ildir Əsra qızımızın ağrılarını yaşayır, ağrılarını bölüşür. Amma biz inanırıq ki, Ali Baş Komandanımızın rəhbərliyi altında mütləq torpaqlarımızı işğaldan azad edəcəyik. Bu istiqamətdə hamımız daha çox çalışmalı, Ali Baş Komandanın ətrafında birliyimizi, bərabərliyimizi, həmrəyliyimizi daha da gücləndirməliyik. Çünki bizi Şuşaya aparan yol daha da güclənən Azərbaycandan keçir. Ona görə bu istiqamətdə hamımızın üzərinə daha böyük məsuliyyət və vəzifələr düşür.

Mən bu gün şəhidlərimizi rəhmətlə, sayğı ilə anaraq, bir təkliflə çıxış etmək istəyirəm. İnanıram ki, hörmətli Nazirlər Kabinetimizin rəhbərliyi bu təklifə, – bəzi həmkarlarım tərəfindən də bu təklif səslənib, – reaksiya verəcəklər və bu məsələ öz həllini tapacaq. Şuşanın simvolu Xurşudbanu Natəvan, böyük Bülbül, dahi Üzeyir Hacıbəyli, onların hər üçünün heykəli erməni vandalizminin, işğalçı Ermənistanın vandalizminin qurbanıdır. O barbarlığın bir nümunəsi kimi bu gün İncəsənət Muzeyinin həyətində saxlanılır. Amma İncəsənət Muzeyinin həyətini çox az insan görür, xaricilər demək olar ki, çox nadir hallarda oranı ziyarətə gedir. Çox yaxşı olardı ki, bu abidələr, Şuşanı anladan və işğalçı Ermənistanın vandalizmini anladan bu 3 abidə ya Şəhidlər Xiyabanında qoyulsun, çünki Şəhidlər Xiyabanını rəsmi protokola görə bütün xarici rəsmi qonaqlar da, digər qonaqlar da, turistlər də ziyarət edir, ya da dənizkənarı bulvara qoyulsun ki,

orada da həddindən artıq çox insan, turistlər olur. Hesab edirik ki, bu, Şuşa, Qarabağ həqiqətlərinin, Ermənistanın vandalizminin, belə deyək, nə dərəcədə dəhşətli olmasını, bu barbarlığın dəhşətini göstərən heykəllərdir. Onlar heykəllərə qarşı hansı cinayətləri törədiblər, bunu göstərir. O zaman Azərbaycan dövləti çox çətinliklə o böyük şəxsiyyətlərin heykəllərini geri ala bilmişdi. Ona görə Nazirlər Kabinetimizdən çox xahiş edirik, – bir sıra həmkarlarımızın da bununla bağlı təklifi olub, – çox yaxşı olardı, bu abidələr ya Şəhidlər Xiyabanında, ya da dənizkənarı parkda yerləşdirilsin. Bütün gələn qonaqlar da dahi Üzeyir bəyin, Xurşidbanu Natəvanın, Bülbülün abidələrinin nə vəziyyətə salındığını görməklə, əslində, Ermənistanın iç üzünü bir daha görmüş olacaqlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Tahir Kərimli. Tahir müəllim, buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar. Burada Sədrimiz çox ciddi məsələlərə toxundu və istəyirəm bu məsəlləri əlaqələndirəm. Yəni Şuşa məsələsi ilə Qələbənin 75 illiyi məsələsini.

Dünən cənab Prezident TASS-ın nümayəndəsinə, Qusmana müsahibə verərkən Qusman belə söz işlətdi ki, Yevgeni Xaldey Reyxstaqın üzərinə sancılan Qələbə bayrağının şəklini çəkib. O, sual verir ki, pandemiya üzərində qələbənin simvolu necə olmalıdır? Mən bu nüansa çox ciddi siyasi aspektdən baxıram. Məsələ ondan ibarətdir ki, Yevgeni Xaldeyin çəkdiyi Reyxstaqın üzərinə sancılan Qələbə bayrağının həmin fotosunda heç də başqası deyil, azərbaycanlı sayılan Abdulhəkim İsmayılov yoldaşları ilə birgə çəkilib. Bu şəklin heç bir başqa bir yozumu yoxdur. Bundan başqa, biz bilirik ki, 8-ci ordunun tərkibində topçu atıcılar olan azərbaycanlı Qazi, ya Həzi Zahidov, Minin,

Markov və digərləri ilə birlikdə ilk dəfə olaraq Reyxstaqın gülləsinin üzərinə, oradan da keçərək at üzərində qadın heykəli olan Reyxstaq qübbəsinə bayraq taxmışdılar. Hətta 1975-ci ildə Yeqorov və Kantariya öz xatirələrində bunları etiraf ediblər. Mən bunu özümdən demirəm. Hərbi Ensiklopediyada da var. Bu da çox güman ki, azərbaycanlıdır. Mən Müdafiə Nazirliyinə, aidiyyəti şəxslərə müraciət edirəm, – 40-dan çox mənbədə bu faktlar göstərilir, – əgər bunlar azərbaycanlıdırsa, faşizm üzərində Qələbə bayrağını Reyxstaq üzərinə taxırsa, inşaallah, bunlara, heç olmasa, Azərbaycanın Milli Qəhrəman adı verilməlidir ki, onların mənəvi övladları, nəvələri də bu gün Şuşanın üzərində qələbə bayrağını ucaltmış olsunlar.

Bundan başqa, bir misal da gətirmək istəyirəm. Məhz əvvəldən Yeqorov və Kantariya müəyyən olunan zaman Stalin Siyasi Büronu topladı və qərar qəbul elədi ki, böyük rus xalqının nümayəndəsi Yeqorov və bir də Stalinə görə gürcü, iki kommunist olsun. Əslində, əvvəldən gürcü və rusu seçmişdilər, kənara qoyuldular. Hətta Berets adlı bir nəfər ukraynalı da ora daxil olundu, sonra Jukov tərəfindən çıxarıldı. Yəni bu, siyasi, sonradan müəyyən olunmuş adamlardır. Qələbə bayrağının qaldırılmasını onların adına çıxırlar. Qələbə bayrağını məhz 75 il əvvəl bizim azərbaycanlılar ora taxıblar. Mən xahiş edərdim ki, bunu heç vaxt yaddan çıxartmayaq.

Bundan başqa, cərimə batalyonun komandiri olmuş Ziya Bünyadov, bizim keçmiş deputat yoldaşımız, 2000-ci ildə rəhmətlik Murtuz Ələsgərovun sədrliyi ilə burada hörmətli akademikimiz Teymur Bünyadov tərəfindən ona milli qəhrəman...

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar. Hörmətli Sədr, Siz məsələlərə çox ətraflı toxundunuz. Mən də Qarabağ müharibəsi, Əfqanıstan müharibəsi veteranları adından burada çıxış edərək, qeyd etmək istəyirəm ki, onlar da bu məsələlərə qoşularaq Şuşanın müdafiəsində iştirak etmiş, həlak olmuş həmkarlarına rəhmət diləyirlər və Ali Baş Komandanın rəhbərliyi altından Silahlı Qüvvələrimiz ilə birlikdə işğal olunmuş torpaqlarımızı azad etmək üçün hər an hazır olduqlarını bəyan edirlər. Bu məsələdə də öz döyüş təcrübələrindən kifayət qədər istifadə etməyə hazırdırlar.

Digər bir məsələ, burada qeyd olundu, 9 may ilə əlaqədar. Mən bu məsələyə xüsusi toxunmaq istəyirəm. Doğrudan da, Azərbaycan Böyük Vətən Müharibəsinə, II Dünya müharibəsinə iki əsas potensial ilə qoşulub. Birincisi, böyük insan qüvvəsi, ikincisi, böyük təchizatla. Bəzi hallarda görürsünüz, insan qüvvəsi ikinci plana keçirilir və təchizatı daha çox qabartmağa çalışırlar, daha çox ortaya atırlar ki, bu qədər neft istifadə olundu, zavodlar, fabriklər, qaçqınların yerləşdirilməsi. Amma o vaxtkı statistika ilə götürəndə demək olar, elə bir ailə yox idi ki, o ailədən bir, ya iki nəfər Böyük Vətən Müharibəsində həlak olmasın, əlil olmasın, şikəst olmasın.

Əhali sayına nisbətdə 20 faiz, 600 mindən çox insan getdi və onun 300 mindən artığı geri qayıtmadı. Burada oturanların hər birinin ailəsində var. Məni, məsələn, özümdən misal göstərə bilərəm ki, iki babam döyüşüb. Biri 1943-cü ildə Ukraynada həlak olub, qayıtmayıb, digəri Yaponiyaya qədər gedib çıxıb və geri dönüb. Yəni axtarsaq, hər bir ailədə tapa, görə bilərik.

Amma əfsuslar olsun ki, 1992-ci ildə AXC–Müsavat hakimiyyəti gələndə bütün bu insanların üstündən bir qara

xətt çəkdi. 9 mayı ləğv etməklə demək olar ki, bizim ərazilərimizin işğalının əsasını qoydular. Bizim qəhramancasına vuruşan ata-babalarımızı vətən xaini adlandırmaqla torpaqlarımızın işğal olunmasına şərait yaratdılar. Yəni hər bir adam bilirdi ki, onun ailəsində, nəslində döyüşən insanlar var və o döyüşlərdə iştirak edib. Onların babaları, nəsli, nəcabəti hamısı fərari idi, özləri kimi fərarilərin adını ortaya çıxarda bilmirdilər. O baxımdan da, bu 9 mayı ləğv edib, həmin müharibənin iştirakçılarını vətən xaini adlandırdılar. İstər Əfqanıstan müharibəsində, istərsə də Böyük Vətən Müharibəsində iştirak edənləri.

Ümummilli liderin hakimiyyətə gəlməsi ilə ədalət tamamilə bərpa olundu və bu gün insanlarımız da bilir ki, vətən həmişə onların arxasındadır. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Naqif Həmzəyev, buyurun.

**N.Həmzəyev**. Hörmətli Sədr, hörmətli deputat həmkarlar, dəyərli media nümayəndələri. Bildiyiniz kimi, son 2 ay Azərbaycanda koronavirusla mübarizəyə həsr olunub və dövlətimiz bu mübarizəni ilkin mərhələsini üzüağ arxada qoya bildi. Ancaq çox təəssüflər olsun ki, bu müddət ərzində təhsil sistemində müəyyən problemlərlə qarşılaşdıq. Çünki faktiki olaraq dərslər dayandırıldı və dərslərin böyük əksəriyyəti isə onlayn həyata keçirildi. Belə bir problemlə qarşılaşdıq ki, təəssüflər olsun, bizim universitetlərimiz distant təhsil, elektron universitet sistemlərini qura bilməyiblər. Bu müddət ərzində bizim fədakar müəllimlərimizin keçdiyi dərslər tələbələrimiz tərəfindən dinlənilsə də, faktiki olaraq bunların qiymətləndirilməsi prosesi həyata keçirilmədi. Bu, bizim üçün bir siqnal olmalıdır və biz çalışmalıyıq ki, bütün universitetlərimizdə distant təhsil sistemini qura bilək. Universitet-

lərdə virtual, elektron universitet sistemi işlək vəziyyətdə olsun və biz payıza, yaxud növbəti illərə hazır olaq. Həmçinin qanunvericiliyimizdə də, məncə, müəyyən dəyişikliklər etməliyik ki, bu problem tamamilə aradan qaldırılsın.

Təhsil Nazirliyi tərəfindən elektron məktəb layihəsi həyata keçirildi. Ancaq bilirsiniz ki, bu layihə hələlik könüllülük prinsipi əsasındadır, şagirdlərimizin böyük əksəriyyəti buradan qeydiyyatdan keçsə də, bu sistem tam olaraq işə düşməyib. Ümumilikdə, biz çalışmalıyıq ki, gələcəkdə belə bir problemlə qarşılaşarıqsa, təhsildə yubanma, yaxud hansı isə bu cür xoşagəlməz hadisələr qətiyyən olmasın. Ona görə, xahiş edirəm, bu məsələni aidiyyəti komitə, aidiyyəti qurumlar qarşısında qaldırsa və biz deputatlar da bunu dəstəkləsək, çox yaxşı olar.

Həmçinin son dövrdə koronavirusa yoluxanların sayında artım hiss olunur. Mən öz müşahidələrimdən onu deyə bilərəm ki, bunun baş verməsinin əsas səbəblərindən biri də məhz nağdsız ödənişlərdir. Çünki vətəndaşların təqaüd və yaxud maaşları bu sistemə keçdikdən sonra təəssüflər olsun, biz bütün bankların, bankomatların qarşısında böyük növbələr görürük və açığını deyim, polislərin gücü çatmır ki, o sosial məsafə saxlamaq məsələsinə nəzarət etsin. Çünki vətəndaşlar çalışırlar ki, maksimum qısa bir müddətdə öz məvaciblərini və ya təqaüdlərini alsınlar. Ona görə bu məsələ ilə də bağlı, xahiş edirəm, ciddi qərarlar qəbul olunmalıdır, əhali arasında maarifləndirmə işi aparılmalıdır ki, insanlar nağdsız ödənişlərə üstünlük versinlər. Çox sağ olun, məni dinlədiyiniz üçün hər birinizə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. 3 nəfər çıxış edəcək. Sahib Alıyev, Məlahət İbrahimqızı və üçüncü şəxs siz tərəfdən olacaq. Kim olacaq, Şakir müəllim?

**Ş.Şabanov.** Novbəlik qaydasında Cavid Osmanov.

**Sədrlik edən.** Amma burada, bizdə görünmür. Sizdə siyahı dəqiqdir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu. Sahib Alıyev. Buyurun, Sahib müəllim.

**S.Alıyev.** Təşəkkür edirəm. Xanım Sədr, dəyərli həmkarlar! Mən də Şuşasız, şuşalı qızımız Əsra kimi 28 il bundan öncə bizə yaşadılan faciəmiz haqqında danışacağam. Tarixin dərs çıxarmalı olaylarından dərs çıxartmayanda, o dərsi yenidən və daha ağrılı şəkildə vermək kimi bir reallığı var. Bu baxımdan götürdükdə, əgər indi Ermənistan adlanan torpaqlarımızda "haylara" dövlət yaradılmasından zamanında dərs çıxarılsa idi, bu gün Qarabağın işğalı faktı ilə üzləşməyəcəkdik.

Ötən əsrin əvvəllərində böyük Üzeyir bəy, yəqin, həm də fitrətindən gələn fəhmlə deyirdi ki, biz indi Zəngəzuru haylara versək, gələcəkdə Qarabağı itirmək təhlükəsi ilə üzləşəcəyik. Nə baş verir? Əsrin axırlarında böyük Üzeyir bəyin də boya-başa çatdığı Şuşa daxil olmaqla Qarabağ torpaqlarının böyük bir hissəsini haylar onlara dövlət yaradanların dəstəyi ilə işğal etdi.

O zaman da, sonra da, ötən əsrin 1990-cı illərinin əvvəllərində də torpaq itkimizin ən başlıca səbəbi özümüzlə, öz zəifliyimizlə, öz başıpozuqluğumuzla bağlıdır. Biz ilk növbədə məhz bunu unutmamalıyıq. Biz bu regionda var olmaq, dövlət kimi qalmaq üçün ancaq güclü olmağa məhkumuq. Bizim dövlət kimi güclü, cəmiyyət kimi yetkin və mütəşəkkil olmaqdan başqa ayrı çıxış yolumuz yoxdur və onu da unutmamalıyıq ki, hakimiyyəti ötən əsrin 1990-cı illərinin əvvəllərindəkilər kimi, səriştəsiz, populist, bir sıra hallarda isə satqın adamlar ələ

keçirdikdə bu, millət üçün böyük fəlakət olur və bir daha biz buna yol verə bilmərik.

Dağlıq Qarabağın hazırda inzibati mərkəzi kimi çıxış edən Tərtərin deputatı olaraq, bir neçə kəlmə də Minsk qrupuna həmsədrlik edənlər haqqında öz fikirlərimi bildirmək istəyirəm. Onlar bilməlidirlər ki, prinsipsiz, çox zaman ikili standartlara dayanan, beynəlxalq normaları gözardi edən, işğalçıya və işğala məruz qalana fərq qoymayan hərəkətlərinə görə mənim seçicilərimin və bütövlükdə Azərbaycanın ictimai rəyində onlara yanaşma mənfidir. Onların bir çox hərəkətləri, hətta işğalçıya dəstək və işğala şəriklik kimi qiymətləndirilir. Sosial şəbəkəyə baxın. Hər kəs soruşur ki, biz nə qədər dözməliyik. Bir tərəfdən münaqişənin həlli üçün Minsk qrupunun formatı dəyişməz, möhkəm format kimi təqdim edilir və təkidlə bildirilir ki, münaqişənin sülh yolu ilə həllindən başqa ayrı yol yoxdur. Digər tərəfdən isə, 28 ildə bu format çərçivəsində real həllə yol açan hər hansı bir danışıq olmayıb. Bütün təşəbbüslər Ermənistanın konstruktivlikdən uzaq, işğalçı siyasəti nəticəsində pozulub və hətta bunu bu gün havadarları da etiraf edirlər. Daha dəqiq, cənab Prezidentin apardığı çoxgedişli və...

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim. Məlahət xanım, buyurun.

**M.İbrahimqızı.** Çox sağ olun, xanım Sədr. Siz 8-i, 9-u və 10-u may yaddaşımıza əbədi həkk olunmuş, eyni zamanda, tariximizin silinməz səhifələri olan bu günlər haqqında çox ətraflı təqdimat etdiniz. Ona görə mən vaxtım az olduğu üçün buna toxunmaq istəmirəm. Nə demək istəyirəm? Elə gün, elə çıxışlar olmaz ki, möhtərəm Prezidentimiz bu gün Əsra qızımızın verdiyi mesajlar kimi bizə mesajlar verməsin. Münxendə, Brüsseldə, eləcə də bir

çox beynəlxalq təşkilatlarda möhtərəm Prezidentimiz nəinki Qarabağdan, Şuşadan, Ağdamdan, Xocalıdan danışır, o, eyni zamanda, bizlərə Zəngəzuru, Göyçəni və vaxtı ilə Azərbaycan torpaqları olmuş Qərbi Azərbaycan ilə bağlı mesajlar verir. Sözsüz ki, şəxsən dövlətimizin başçısı, möhtərəm Prezidentimizin qətiyyətli, fədakar və vətənpərvər çıxışları ilə biz bir çox aspektlərdə qalibik. Bəli, beynəlxalq hüquq çərçivəsində biz qələbə çalmışıq. Demək olar ki, elə bir təşkilat yoxdur ki, orada Ermənistan təcavüzkar və Azərbaycan işğala məruz qalan kimi qeyd olunmasın. İqtisadi cəhətdən istər dövlətimiz, istərsə də ordumuz işğalçı Ermənistan ilə müqayisə olunmaz dərəcədə güclüdür. Demoqrafiya nöqteyi-nəzərindən desək, Ermənistan əhalisi getdikcə demoqrafik minusa yuvarlanan bir ölkədir.

Bu gün bizim təbliğat və təşviqat ilə bağlı ən vacib olan məsələlərdən biri nədir? Mən bu günlərdə 8 may ilə bağlı internetdə erməni mətbuatını çox ciddi araşdırdım. YouTube-da, eləcə də sosial şəbəkələrdə Ermənistanın bütün magistral yollarının kənarında vurulan belə bir xəritə yerləşdirilib. Bu xəritədə işğal etdikləri Dağlıq Qarabağ torpağı tam Ermənistanın ərazisi kimi göstərilir. Eyni zamanda, Naxçıvan da. Baxmayaraq ki, möhtərəm Prezidentimiz Münxendə Paşinyanı ifşa etdi. Yəni bu, birinci dəfə deyildi. Paşinyan özü şəxsən Naxçıvanın mübahisəli torpaq olduğunu söylədi. Çox təəssüf bu gün bizim nə hava limanından Bakı şəhərinin mərkəzinə qədər olan yolda, nə də magistral yollar da, –hansı ki, Azərbaycan tranzit, logistik ölkə, məkana çevrilibdir, – istər Bakıdan Gürcüstana doğru o gözəl magistral yolda, istərsə də şimala, cənuba doğru, heç bir yerdə işğal altında olan torpaqlarımızın, rayonların, kəndlərin adı bu elektron

ekranlarda göstərilmir. Bu gün biz gənc nəslə də bunu bu formada təbliğ edə bilərik və ölkəmizə gələn minlərlə turist də bunu, sadəcə olaraq, göz yaddaşı ilə beyinlərinə həkk etmiş olar. Ermənistan işğalçılarının bunu bu formada etməsi məhz Ermənistana gələn xaricilərə təbliğ etmək, həm də gələcək erməni nəsillərinə çatdırmaq niyyətidir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Məlahət xanım. Cavid Osmanov. Cavid müəllim, buyurun.

**C.Osmanov.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Sahibə xanım, Siz giriş nitqinizdə gündəmdə olan məsələlərin hər birindən geniş söhbət açdınız. Mən də istəyirdim bu gün 8 may, Şuşanın işğalı ilə bağlı bir-iki kəlmə deyim. Təbii ki, 28 il bundan əvvəl Şuşanın işğalı Ermənistan seperatçı rejimi tərəfindən həyata keçirilmişdir. Amma biz unutmamalıyıq ki, o vaxt hakimiyyətdə olan AXCP–Müsavat cütlüyünün rəhbərləri Şuşanın işğalında da, – necə ki, bu gün Azərbaycan xalqına xəyanət edirlər, – o vaxt da elə Azərbaycan xalqına xəyanət edərək Azərbaycanın torpaqlarının 20 faizinin işğal olunmasında Ermənistana dəstək olmuşdular. Bugünkü Milli Şura adlanan və 5–10 nəfər yaramaz, şərəfsiz, məsuliyyətsiz, vicdansız insanlardan formalaşan bir qurum sanki Azərbaycanda Ermənistanın səfirliyi funksiyasını həyata keçirdir və bu quruma rəhbərik edən Əli Kərimli də Ermənistanın Azərbaycanda səfiri funksiyasını həyata keçirdir. Təbii ki, Azərbaycan xalqı belə ünsürləri artıq 27 il bundan əvvəl tarixin zibilliyinə atmaqla yanaşı, eyni zamanda, onları Azərbaycan xalqına böyük xəyanətdə də suçlayırlar.

Eyni zamanda, mən fürsətdən istifadə edib, elə hüquq mühafizə orqanlarına da çağırış edirəm ki, bu gün özlərini

demokrat adlandıran və Azərbaycan xalqını hər gün təhqir edən və xəyanət edən insanlar haqqında artıq hüquqi qiymət verilməsinin vaxtıdır. 1993-cü ildə, iki gün sonra, may ayının 10-da bütün Azərbaycan xalqının doğum gününü böyük təntənə ilə qeyd edəcəyi dahi şəxsiyyət, ulu öndərimiz Heydər Əliyev hakimiyyətə gəlməsə idi, başqa faciələr də yaşanacaqdı. Təbii ki, o vaxt da Azərbaycan xalqı, Azərbaycan cəmiyyətindən onları məhz təcrid etmişdi. Ona görə də mən, xahiş edirəm ki, hüquq mühafizə orqanları ölkəmizə, dövlətimizə, müstəqilliyimizə, vətənimizə, xalqımıza, Əsra kimi gənc xanımlarımıza xəyanət edən insanlar haqqında artıq hüquqi qiymətini versinlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, müzakirələr bitdi. Çox sağ olun, müxtəlif məsələlərə toxunuldu, maraqlı və faydalı məlumatlar verildi. İndi isə gündəliyimizin 1-ci məsələsinə keçirik.

1-ci məsələ "GUAM – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsində dəyişikliklər edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsidir. Məlumat verim ki, bu layihə bir oxunuşda qəbul ediləcəkdir. Məsələyə dair məlumat vermək üçün Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidova söz vermək istəyirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov**, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörməti Sədr. Bugünkü iclasımızın birinci məsələsi sanki bu gün müzakirə etdiyimiz məsələ ilə bağlıdır. Ona görə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsini və 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq, "GUAM – Demokratiya və

İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsində dəyişikliklər edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsinin qəbulu bu təşkilata üzv, torpaqları işğal altında olan ölkələri birləşdirir. Həm Azərbaycan, həm Gürcüstan, həm Moldova, həm də Ukrayna öz torpaqlarının bir qismini işğal nəticəsində itiriblər. Ona görə, bu nöqteyi-nəzərdən, bu təşkilatın yüksəlməsi, bu təşkilatın fəaliyyəti tarix, zaman göstərir ki, çox vacib və çox əhəmiyyətlidir.

Düzdür, deməliyəm ki, bu qanun layihəsində, sadəcə, texniki dəyişikliklərdir və bu texniki dəyişikliklər, hörmətli həmkarlar, həmin ölkələrin Konstitusiyalarında edilmiş dəyişikliklərlə bağlıdır. Ona görə, təbii, Nizamnamədə dəyişikliklər edilməlidir. Ancaq bu dəyişikliklərlə yanaşı, GUAM-ın, demokratiya və iqtisadi inkişafa xidmət edən bir təşkilatın inkişafı, onun əlaqələrinin genişləndirilməsi, beynəlxalq səviyyədə təmsilçiliyi ilə bağlı biz fəaliyyətimizi yüksək səviyyədə təşkil etməliyik. Ona görə mən öz həmkarlarımı bir parlament olaraq həm bu istiqamətdə fəaliyyətimizi inkişaf etdirməyə, həm də bu gün bu məsələyə müsbət münasibət bildirməyə çağırıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, mən görürəm ki, çıxış etmək istəyənlər var. Fazil Mustafa. Fazil müəllim, çıxışa başlamazdan əvvəl, Səfa müəllim, bizim ixtiyarımız var, 5 dəqiqəyə keçək?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Düşünürəm ki, səsə qoymaq lazım deyil. Fazil müəllim, buyurun.

**F.Mustafa.** Hörmətli xanım Sədr, hörmətli millət vəkilləri! Təbii ki, bu, texniki dəyişikliklərdir, bunu dəstəkləyəcəyik. Amma mən bu kimi sənədlərin artıq ciddi

şəkildə araşdırılıb və təqdim olunmasının tərəfdarıyam. Çünki mən keçmiş saziş ilə bağlı məsələni elə-belə xatırlatmadım. İndi biz 1992-ci ildə xəyanətdən danışa bilərik, nə bilim, Şuşa ilə bağlı fikirlərimizi biz nostalgiya formasında deyə bilərik, amma konkret olaraq biz bu ənənəni qoymalıyıq. Milli Məclisin qəbul etdiyi, hökumətin imzaladığı sənədə görə böyük, total bir hücum başlayır ki, sanki bunlar Qarabağı bizdən az düşünürlər, biz Qarabağın taleyi ilə maraqlanmırıq. Mən çox təəssüf etdim ki, çıxışlarda da bu mövzuya kimsə toxunmadı.

Xarici İşlər Nazirliyinin verdiyi açıqlama şəxsən məni qane etmədi. Elə o açıqlama əsas oldu ki, guya, biz icazə vermişik, İran orda körpü tiksin. Bu sazişdə bu, nəzərdə tutulmayıb, özbaşına həyata keçirilən fəaliyyətdir. Yəni cəmiyyətə bunun açıqlaması verilməlidir, Milli Məclisin nüfuzu ilə bağlı məsələdir. Milli Məclis sanki qəbul etdiyi qərarlara, təsdiq etdiyi sazişlərə əhəmiyyət vermədən bunu edir. O baxımdan da, müvafiq qurumlar, parlament komitələri də, başqa qurumlar da, hökumət nümayəndələri də bu kimi bəhanə verə biləcək, yalandan, populist, hakimiyyəti, parlamenti nüfuzdan sala biləcək addımların qarşısına çıxmalıdırlar. Aydın fikirlər söyləməlidirlər. Elə mövzular var ki, sadəcə özü üçün təhlükəli hesab edib, heç kim o mövzuya girmək istəmir. Hamı yayınır. Bəs bu dövləti hansı motiv ilə qorumaq mümkün olacaqdır?

Biz başqa dövlətlərlə bağlı da fikirlərimizi müəyyən mənada açıq şəkildə deməliyik. Bəli, bu ölkənin orada körpü, yol salması, erməni terrorçularına dəstək verməsi beynəlxalq hüquqa ziddir. Hansı isə formada bunlar deyilməlidir. Gücümüz çatmır, başa düşdük, torpaq işğal olunub, amma biz bu sazişlə imkan yaratmışıq ki, gələcəkdə müəyyən dərəcədə hüquqi cəhətdən əl yerimiz olsun, bu

problemə müdaxilə edə bilək. Ən azı beynəlxalq məhkəmədə, beynəlxalq hüquq səviyyəsində problemi həll edə bilək. Ona görə də bu cür total hücumların qarşısını almaq üçün, məncə, müxtəlif qurumların məsuliyyətini xatırlatmaq olduqca vacibdir və bu istiqamətdə də ciddi açıqlamalar verməlidir ki, cəmiyyətdə bundan sui-istifadə edərək yalan informasiyalar yayılmasın. Sanki elə göstərilib ki, bu sazişdə hər bir şeyə imkan vermişik, İran istədiyini etsin, belə bir söhbət yoxdur. Ona görə də bu məsələyə, məncə, ciddi yanaşmalıyıq.

Biz daha çox öz içimizdə düşmən axtarma ənənəsini bir az azaltmalıyıq. Təbii ki, bu gün başqa ölkələrdən qaynaqlanan, kifayət qədər fəaliyyət göstərən qüvvələr var. Müxalifət sırasında da, başqa yerlərdə də. Amma tariximizi təftişçilikdən yavaş-yavaş uzaqlaşdırıb gələcəyə baxmalıyıq və qarşımıza çıxan bu cür problemləri həll etməkdə həmrəylik göstərməyə çalışmalıyıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Sabir müəllim, buyurun.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm. Mən də Fazil bəyin dediyini dəstəkləyirəm. Dünən bir sıra televiziyalardan və mətbuatdan mənə də suallar verdilər ki, İran ilə Azərbaycan arasında saziş bağlanıb və İran müəyyən işlər görür, bu, nə deməkdir? Bu, harada olacaq, harada tikiləcək? Azərbaycan buna nə şəkildə, hansı şərtlərlə qoşula bilər? Təbii, mən izah edirəm ki, hələ sovet dövründən başlayan məsələlər var idi, orada Xudəfərin və Sınıq körpünün yanında bir su anbarının tikilməsi, körpülərin salınması və sair. Amma hər halda bunu tam aşkarlığı ilə izah etmək olmur. Ona görə, hesab edirəm ki, o məsələyə bir az aydınlıq gətirilməlidir. Təbii ki, biz deyirik,

Azərbaycan Dağlıq Qarabağda ermənilərin və işğal olunmuş digər torpaqlarda işğalçı qüvvələrin iştirakı ilə tikinti işlərinin görülməsinə heç bir şəkildə yol verməz. Amma hər halda, məncə, sazişin özündə bir aydınlıq olmalı idi.

İkinci məsələ. Bilirsiniz, mən hələ 1990-cı ildə Ali Sovetin vaxtında deputat olmuşam. Uzun bir vaxt keçib, bir çox şeyləri izləməyə imkanım olub. Təbii ki, burada davamlı olaraq iqtidar, müxalifət söhbəti var, olacaq və tariximizə də müəyyən baxışlar var. Xüsusən cavan deputatlar ki o hadisələrin şahidi olmayıblar, bəzən, belə deyək, səthi biliklərlə danışırlar. Bilirsiniz, Xocalı ilə bağlı o vaxt Ayaz Mütəllibovun bir müsahibəsi olmuşdu, sonra başqa jurnalistlər də buna qoşulmuşdular və biz düşmənlərin əlinə bir dəstəvuz verdik, bir bəhanə verdik. İllər uzunu ermənilər bizi ittiham edirlər ki, Xocalını azərbaycanlılar özləri törədiblər.

Bu azmış kimi, indi bugünkü Məclisdə səslənir ki, Şuşanı da guya biz özümüz vermişik. Ay qardaş, bu cür danışmaq olmaz axı. Bura Milli Məclisdir, bura çox ciddi, məsuliyyətli bir yerdir. Sən kimi istəyirsən tənqid et, o vaxtkı iqtidarı da tənqid et. İndiki müxalifəti nə cür istəyirsən tənqid et, yəni fikir ayrılıqları var. Heç kəs kiminsə sözünə sərhəd çəkmək istəmir. Amma bu cür məsələ ki, biz yüzlərlcə, minlərlcə şəhid vermişik, torpaqlarımız, deyək ki, böyük bir gücün, qüvvətli bir dövlətin yardımı ilə alınıb, silahsız bir vaxtda, xalqın əlində heç nə yox, ordu yox, millət qəhrəmanlıq edib, amma gücümüz çatmayıb. Bu gün də 30 ildir, yenə hələ gücümüz çatmır. Belə bir vəziyyətdə deyək ki, o vaxt o hakimiyyətin bacardığı o idi, hər şeyi o hakimiyyətin boynuna yıxmaq və erməniləri təmizə çıxartmaq olmaz. Bu məsələ çox ciddi məsələdir. Xahiş edirəm, gələcəkdə də,

tənqid ola bilər, o vaxtkı hakimiyyətin günahları olub, amma, eyni zamanda, o hakimiyyət bacarmadı.

**Sədrlik edən**. Hörmətli Sabir müəllim, mən Sizdən çox xahiş edirəm, bu gün biz ayrı bir məsələyə baxırıq. Gündəliyin birinci məsələsinə Sizin münasibətiniz nədir?

**S.Rüstəmxanlı**. Hörmətli Sədr, mən bu fikri burada deməliydim, bu, tək mənim fikrim yox, həm də Məclisin fikri olmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Məclisin fikri, elə bilirəm ki, ifadə olunub.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli Sabir müəllim, bu gün burada səslənən fikirlərdə fərqli siyasi yanaşma olsa da, heç birində, heç kim, Siz dediyiniz kimi, Şuşanın ermənilər tərəfindən yox, bizim onun işğalına şərait yaratmağımızla bağlı fikir söyləmədi. Bu fikri Siz səsləndirdiniz. Burada siyasi mübarizə baxımından fərqli fikirlər oldu, Cavid müəllim, Siyavuş Novruzov çox da haqlı fikirlər söylədilər.

Məlumat üçün deyim ki, Şuşanın işğalına hüquqi qiymət verilib. O zaman Ali Məhkəmədə məhkəmə prosesi olub. Hüquqi qiymət verilərkən Şuşanın işğalına şərait yaradan məsələlərə də qiymət verilib. Bu gün fikirlər səsləndi, o zaman hakimiyyətdə olan və hakimiyyətə iddialı olan qüvvələrin mübarizəsi nəticəsində yaranmış şərait həm də Şuşanın işğalı üçün bir şərait idi. Bunun tam hüquqi qiyməti verilib və bu, bizim tərəfimizdən heç bir halda başqa cür yozula bilməz. Misal üçün, Böyük Vətən Müharibəsi ilə bağlı, tarixlə bağlı fərqli fikirlər söyləndi. Amma bizim tariximizin o hissəsi ilə bağlı fikirlərimiz çox aydındır. Mən hesab edirəm ki, biz siyasi baxımdan

fərqli fikirlərdə olsaq da, amma tarixi, hüquqi baxımdan vahid bir mövqedəyik. Əlbəttə ki, Şuşa Ermənistan tərəfindən işğal olunub, amma o zaman Azərbaycanda yaranmış siyasi vəziyyətə biz hər zaman olduğu qiyməti verəcəyik.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən düşünürəm ki, bu məsələ ilə bağlı ulu öndər Heydər Əliyev və möhtərəm cənab Prezident İlham Əliyev öz çıxışlarında ətraflı siyasi qiymət veriblər. Məsələni səsə qoyuruq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir, əleyhinə, bitərəf yoxdur.

**Sədrlik edən.** Qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, mən sizi çağırıram ki, bizim gündəliyimizin hər bir məsələsi haqqında danışaq.

Hörmətli həmkarlar, gündəliyin növbəti 9 məsələsi, yəni 2-ci məsələdən 10-cu məsələsinə qədər bütün qanun layihələri üçüncü oxunuşda təqdim edilir. Üçüncü oxunuşun tələblərini hamı bilir, mən ancaq yenə də bir daha xatırlatmaq istərdim. Üçüncü oxunuş zamanı qanun layihəsi bütövlükdə səs qoyulur və onun mətnində heç bir dəyişiklik edilə bilməz.

Beləliklə, gündəliyin 2-ci məsələsi. Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında qanun layihəsi. Layihəni Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov təqdim edir. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli Sədr, hörmətli deputat həmkarlarım. Məlumat üçün bildirmək istəyirəm ki, müzakirənizə təqdim olunmuş qanun layihəsinin birinci və ikinci oxunuşlarında həmkarlarım tərəfindən elə bir iradlar, qeydlər bildirilmədi. Amma ikinci oxunuşdan sonra biz hörmətli komitə üzvləri ilə bir yerdə bəzi redaktə xarakterli məsələləri qanunvericilik təşəbbüsü hüququ subyektinin nümayəndəsi ilə razılaşdırdıq. Qanun layihəsi üçüncü oxunuşa tam hazırdır. Ona görə müsbət münasibət bildirməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Heç kimin sualı yoxdur. Qanun layihəsini səsə qoyuruq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

İndi isə gündəliyin 3-cü və 4-cü məsələlərinə keçirik. Bunlar Milli Məclisə cənab Prezidentin bir məktubu ilə daxil olub. Gündəliyin 3-cü məsələsi "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələ ilə bağlı məlumat vermək üçün Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım Sədr, hörmətli millət vəkilləri. Müzakirənizə təqdim olunan məsələ iki oxunuşda ətraflı müzakirə edilib və hər iki oxunuş zamanı çıxış edən millət vəkillərinə komitəmiz adından bir daha təşəkkürümü bildirirəm. Çıxışlarda səslənən yeganə bir məsələ fərdi kəndli təsərrüfatında və pay torpaqlarında fərdi qaydada məşğul olan, aqrar sahədə çalışan insanların sığorta haqlarının torpağın gəliri və həcmi ilə bağlı ölçülməsi və təyin olunması ilə əlaqədar fikirlər idi. O fikirlər də qanun layihəsinin müəllifləri, layihə subyektləri ilə müzakirə olunub, yəqin ki, payızda geniş dinləmələr nəticəsində son qərar qəbul olunacaqdır. Amma indiki layihə 30-dan çox sahə və fərdi peşə sahiblərinin sığorta haqlarının pandemiya və postpandemiya dövründə, eləcə də 2026-cı ilə qədər xeyli azaldılmasını və bu sahədə onların həm sosial müdafiəsinin təmin olunmasını, həm də məşğulluğun həyata keçirilməsini nəzərdə tutur. Üçüncü oxunuşun tələblərinə tam hazırdır. Xahiş edirəm, millət vəkilləri layihənin lehinə səs versinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Sual yoxdur, ona görə səsə qoyuruq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 88 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, sizdə vəziyyət necədir?

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 4-cü məsələsinə keçirik. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edir. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, qanun layihəsi koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar müvəqqəti vergi rejiminin tətbiqini nəzərdə tutur. Müvəqqəti vergi rejimi 1 illik dövrü, 2020-ci ili əhatə edəcək. Güzəştlər, eyni zamanda, stimullaşdırıcı tədbirlər var. Düşünürəm ki, bu, həm Milli Məclisdə, həm də cəmiyyətdə kifayət qədər geniş müzakirə olunub. Ona görə də münasibət bildirməyinizi və dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Xahiş edirəm, qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə səs verəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, sizdə vəziyyət necədir?

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 5-ci məsələsi "Hərbi qulluqçuların statusu haqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələ haqqında Ziyafət müəllim məlumat verəcək. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov.** Çox sağ olun. Hörmətli Sədr, hörmətli deputat həmkarlarım. Bizim komitəmizdə müzakirə olunan qanun layihələri üçüncü oxunuşun tələblərinə tam hazırdır. Ona görə müsbət münasibət bildirməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində və Elm və təhsil komitəsində də baxılıb. Qüdrət müəllim, Sizin sözünüz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Bəxtiyar müəllim, Sizin?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuruq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, buyurun.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

İndi isə 6-cı məsələyə keçirik. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim edilir. Qüdrət müəllim, buyurun, söz Sizindir.

**Q.Həsənquliyev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Çox sağ olun. Hörmətli Sədr, hörmətli millət vəkilləri. Biz bu qanun layihəsini üçüncü oxunuşda qəbul etməliyik. Hörmətli Sahibə xanım, ikinci oxunuşda bəzi fikirlər səsləndirildi. Onların bəzilərinə aydınlıq gətirmək istəyirəm. Məsələn, qeyd olunurdu ki, edilən dəyişikliklərdə,

nəzərdə tutulan həmin normalarda dil ağırdır, bəzi məsələlər başa düşülmür. Əslində, qeyd etdiyimiz kimi, 10 qanuna yalnız düzəliş xarakterli dəyişikliklərdən söhbət gedir. Biz o normaları yenidən yaratmırdıq, yəni o qanunlara yeni normalar daxil etmirdik. Amma buna baxmayaraq, orada səsləndirilən bəzi fikirlərə, məsələlərə aydınlıq gətirmək istəyirəm.

Məsələn, "Ünvanlı dövlət sosial yardım haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən gəliri Azərbaycan Respublikasında cari il üçün müəyyən edilmiş ehtiyac meyarından aşağı olanlar aztəminatlı şəxslər hesab olunurlar. Buna bir aydınlıq gətirim ki, burada qeyd olunurdu ki, aztəminatlı şəxslər kimlər sayılır. Yəni ikinci oxunuşdakı çıxışlarla bağlı bəzi məsələlərə aydınlıq gətirmək istəyirəm. Sonra uşaqlarla bağlı qeyd edim ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 28-ci maddəsinə əsasən 7 yaşınadək şəxslər azyaşlı, 7–18 yaşınadək şəxslər isə yetkinlik yaşına çatmayan şəxs, yəni uşaq hesab edilir.

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanunun 1.0.2-ci maddəsinə uyğun olaraq, 14–29 yaşlarında olan şəxslər gənc hesab olunur. Eyni zamanda, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində isə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların dairəsi müəyyən edilmişdir. Yəni mən, sadəcə, məlumat xarakterli məlumatlar verdim. Ona görə ki, hörmətli Əziz müəllim və başqa millət vəkilləri bəzi məsələlərə toxunmuşdular. Xahiş edirəm, səsvermə keçirəsiniz. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Qüdrət müəllim. Hörmətli

həmkarlar, bu məsələyə daha 5 komitədə baxılıb. Mən Fəzail müəllimdən, Adil müəllimdən soruşdum, onların sözləri yoxdur. Hicran xanım, Zahid müəllim, Tahir müəllim, sizin heç bir əlavəniz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Məsələni səsə qoyuruq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 19 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 7-ci məsələsinə keçirik. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim edilir. Məsələ haqqında İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məlumat verəcək. Zahid müəllim, 2 gün öncə Əli müəllimin iştirakı ilə komitədə dinləmələr keçirmisiniz. Buyurun, xahiş edirəm, söz Sizindir.

**Z.Oruc,** *Milli Məclisin İnsan Hüquqları komitəsinin sədri.*

Hörmətli Sədr, hörmətli millət vəkilləri. İkinci oxunuşdan sonrakı vəziyyət haqqında çox qısa məlumat vermək istəyirəm. Hörmətli Sədr, Siz qeyd etdiyiniz kimi, hələ ikinci oxunuş zamanı müzakirələrdə Sizin elə bu tribunadan, – bəlkə bu məsələyə həsr olunmuş bir ictimai dinləmələr keçirilsin, – təklifiniz olmuşdu. Sizə təşəkkür edirik ki, bu dinləmələr Milli Məclis Sədrinin birinci müavini hörmətli Əli müəllim Hüseynlinin bilavasitə iştirakı və komitə üzvləri ilə birgə, həqiqətən də, yüksək səviyyədə təşkil olundu. Mən elə hesab edirəm ki, profil qurumların təmsilçilərinin iştirakı bu müzakirələri daha sanballı, daha statuslu etdi.

Qısaca olaraq onu deyim ki, müzakirələr zamanı 11 millət vəkili çıxış etmişdir. İrəliyə sürülən əksər məsələlərə sonradan həm şəxsi görüşlərdə, həm də dinləmələr zamanı aydınlıq gətirilibdir. Mən onların üzərində dayanmaq istəmirəm. Çıxış edən hər bir millət vəkilinin mövqeyi həm aydındır, həm də qiymətlidir. Onlar haqqında da onların özünə ayrıca arayışlar verəcəyik. Amma hesab edirəm ki, bu müzakirələri nəzərə alaraq, layihələri üçüncü oxunuşda səsə qoymaq olar. Çünki bu, qanunların Prezident Fərmanına uyğunlaşdırılmasıdır. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim. Qənirə xanım, Sizin komitədə də baxılıb. Sözünüz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinin üçüncü oxunuşda...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Üzr istəyirəm, Siyavuş müəllim və Nizami müəllim. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Sağ olun. Təşəkkür edirəm, hörmətli Sədr. Düzdür, üçüncü oxunuşun tələblərini mən çox gözəl bilirəm, uzun müddətdir, Milli Məclisin deputatıyam. Amma bir neçə kəlmə informasiya və informasiyanın mühafizəsi haqqında fikrimi söyləyim. Çünki elə qanunun ruhuna da uyğundur, yəni bizim gündəliyin müzakirəsi zaman aidiyyatı olmadığına görə mən bu məsələyə toxunmaq istəmədim. Əsas məsələ ondan ibarətdir ki, bilirsiniz, möhtərəm Prezidentimiz dünən koronavirus pandemiyası ilə əlaqədar olaraq çox kəskin şəkildə məsələlər qaldırdı, dedi, karantin qaydalarına ciddi şəkildə riayət olunmalıdır. Ondan sonra Birinci vitse-prezidentimiz yenidən xalqa müraciətlə çıxış etdi ki, qoyulan karantin qaydalarına riayət olunsun, bu, insanların, vətəndaşların özünün həyatı və təhlükəsizliyi üçün olan məsələdir.

Sizin, hörmətli Sahibə xanım, WhatsApp vasitəsi ilə bütün qruplara göndərdiyiniz müraciəti hər bir deputatımız dəstəklədi və bu çağrışlara qoşuldular, ayrı-ayrı mətbuat orqanlarında bu barədə çıxış etdilər.

Mən nəyə toxunmaq istəyirəm? Bu barədə artıq kifayət qədər danışılıb. Xaricdə oturan və daxildə olan, burada yaxşı qeyd olundu, Ermənistanın səfirliyi funksiyasını yerinə yetirən qüvvələr, qarayaxma kampaniyası aparır. İndi növbəti qarayaxma kampaniyası nədən ibarətdir? İnformasiyaya aid olduğuna görə mən bu məsələyə toxundum. Qeyd edirlər ki, Azərbaycanda sms vasitəsi ilə icazələrin alınması ondan ötrü yaradılıb ki, müxalifətçiləri izləsinlər. Bütün dünya ölkələrində, Avropada insanların rahat fəaliyyəti, hərəkəti üçün bu gün elektron hökumət yaranır, elektron imza var. Bu gün elektron imzalar vasitəsi ilə alqı-satqı gedir, böyük vəsaitlər köçürülür və

sair. Nə qədər aşağı səviyyəli olmaları ilə yanaşı, eyni zamanda, insanları çaşdırırlar ki, güya vətəndaşların hüquqları pozulur. Mən indi dəqiqləşdirdim, gün ərzində 1 milyona yaxın sms gəlir. Bunların ətraflarında vur-tut 15 nəfər adam ola-olmaya. Bunlar o Milli Şura deyilən dərnəkdə toplaşırlar, bütün siyasi partiyalardan qovulmuş və yaxud orada özünə yer tapa bilməyən adamlar da yığışıb. Məclisə seçilə bilməyib, seçiləndə başqa şey danışırdı, indi isə başqa şey danışır. Götürüb ortaya məsələ çıxardır ki, bu vasitə ilə insanları izləyirlər.

Digər tərəfdən, mən qonşu Gürcüstanı götürürəm, əgər sms vasitəsi ilə icazəni pozursa, bu insan min lari cərimə olunur. O biri tərəfdən, başlayırlar ki, Gürcüstanda demokratiya çiçək açıb, daha çiçəyi yığıb-yığışdırmaq mümkün deyil. Digər tərəfdən, Siz Azərbaycana atılan böhtanların səviyyəsinə baxın ki, adi bir xəstəlikdən, epidemiyadan da sui-istifadə edib xalqı çaşdırmağa çalışırlar və insanlara bu cür yalanlar, informasiyalar ötürülür. Ona görə də mən hesab edirəm ki, informasiyaların fərdiləşdirilməsi, yalan informasiyaya görə məsuliyyətin ağırlaşdırılması vacibdir. Biz növbəti qanunlarımızda bunları nəzərdə tutmalıyıq. İnsan birinə informasiya verir, əgər mənbəyi yoxdursa, dəqiq deyilsə, xalqı çaşdırmağa xidmət edirsə, dövlət əleyhinədirsə, özü də qərəzlidirsə, bununla bağlı ciddi ölçülər götürülməlidir və addımlar atılmalıdır.

Bir məsələyə də qısaca toxunmaq istəyirəm. Bizim özünü alim adlandıran, Amerikada erməni dairələrinin tapşırığı ilə yazılar yazan Cəmil Həsənli facebook səhifəsində arxivlərin açılması ilə əlaqədar bir neçə səhifə yazıb. 1993-cü ildən, guya Milli Təhlükəsizlik Nazirliyinin arxivlərindən yazır. O vaxt hamı məsələ qaldırmışdı ki, 1992-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin arxivləri

açılsın. Siz ciddi cəhdlə buna imkan vermədiniz. Elçibəyin dəfələrlə çıxışı olubdur, – burada oturanlar var, həmin vaxt Milli Məclisin deputatı olublar, – o açılsa, Azərbaycanda vətəndaş müharibəsi baş verər. Çünki açılsa, oradan öz adları çıxacaqdı. İndi bu, 1992-ci, 1993-cü ilə toxunmur, 1994-cü ildən bu tərəfə aid edir, London arxivlərindən məsələ qaldırır. Londonda min illik tarixi olan arxivlər nədənsə açılmır. Amma Cəmil Həsənliyə sərf eləyən, Azərbaycan əleyhinə olan məlumatlar Cəmil Həsənliyə verilir. Sual olunur ki, bu, hansı ölkənin kəşfiyyatına işləyir və hansı ölkənin tapşırığını yerinə yetirir? Həmin suala cavabı elə onun öz facebook səhifəsində tapmaq olar ki, hansı ölkələrə xidmət göstərir. Budur, bunların xisləti. Ona görə də informasiya təhlükəsizliyi mütləq ciddi şəkildə qorunmalıdır. Təşəkkür edirəm. Üzr istəyirəm ki, gündəlikdən kənara çıxdım.

**Sədrlik edən**. Nizami Cəfərov. Buyurun, Nizami müəllim.

**N.Cəfərov**. Sağ olun, Sahibə xanım. Hörmətli deputatlar, dünən yox, srağagün biz çox yaxşı dinləmə keçirdik və mənə elə gəlir ki, buna çox böyük ehtiyac var idi və bəzi məsələlər aydınlaşdı. Burada, xüsusilə bizim hörmətli hüquqşünaslarımız daha çox pedantizm prinsiplərindən çıxış elədilər. Bəlkə də doğru elədilər. Çünki başqa yola gedəndə ayrı izahatlar da tələb olunur. Biz razılaşdıq, əlbəttə, çünki, bu dəyişiklər Dövlət dili haqqında Qanunun 13-cü maddəsi ilə əsaslandırıldı. Dövlət dili haqqında Qanun, bilirsiniz ki, 18 il bundan qabaq qəbul olunub. Yəni bu 18 ildə müstəqil Azərbaycan Respublikasında dillə bağlı bir sıra məsələlər, anlayışlar hüquqi planda dəyişib. Əsas ziddiyyət ədəbi dil normaları ilə dövlət dili normalarına, yəni bizim dövlət dili normalarına verə

biləcəyimiz izahat idi. Biz, əlbəttə, qəbul edirik, yəni başqa üsul da yoxdur.

Amma mən bir təklif eləmək istəyirəm ki, biz Dövlət dili haqqında Qanuna bir də qayıdaq. Xüsusilə təkcə 13-cü maddə ilə bağlı yox, başqa maddələrdə də orada izahata ehtiyac var. Yəni 13-cü maddədə dövlət dili normalarından ancaq fonetik, yəni orfoqrafiya və orfoepiya normaları nəzərdə tutulur. Amma dil, axı, həm də lüğət tərkibindən, qrammatikadan ibarətdir. Biz o dəyişiklikləri eləyəndə leksik və qrammatik norma məsələlərini də dilin normalarına daxil eləyək. Dövlət başçısının 18 il ərzində dillə bağlı qəbul elədiyi çoxlu sərəncamlar, hüquqi sənədlər var. Əlbəttə, onlar bu qanuna gətirilməlidir. Yəqin Mədəniyyət komitəsi bu işləri öz üzərinə götürəcək. Dövlət dili haqqında Qanunda ciddi dəyişiklərə ehtiyac var və biz artıq bunu görürük. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən**. Çox sağ olun, Nizami müəllim. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev**. Çox sağ olun, hörmətli Sədr. Sözün doğrusu, çıxış eləmək fikrim yox idi. Amma Siyavuş müəllimin çıxışından sonra istərdim iki məsələyə münasibət bildirim. Xüsusilə informasiya təhlükəsizliyi və dövlətimizin təhlükəsizliyi ilə bağlı məsələ olduğuna görə. Təəssüf edirəm ki, burada Cavid müəllim Şuşanın işğalında AXCP-ni, "Musavat"ı ittiham elədi. Əslində, bu cür çıxışlarla, – Siyavuş müəllim Cəmil Həsənli barədə danışdı, – biz o dövrdə xalq hərəkatında olmuş çoxlu sayda insanları Cəmil Həsənli kimi insanların ətrafına səfərbər eləyirik, yığırıq. Hamımız bilirik ki, Cəmil Həsənli mənsəbpərəst adamdır. Onun üçün bütün dəyərlər mənasız bir şeydir. O, vaxtilə AXCP hakimiyyəti dövründə müşavir vəzifəsi tutmaq üçün Milli İstiqlal Partiyasının

sıralarından istefa verdi və gəldi vəzifə tutdu. Sonra da deputat seçiləndə AXCP sıralarından istefa verdi və Əli Kərimlidən imtina elədi. İndi Siyavuş müəllim doğru deyir ki, əlbəttə, inciklikdən doğan hay-həşir salır. Sözsüz ki, heç kim də onun dediklərini ciddi qəbul eləmir.

Amma Azərbaycanda bütün hakimiyyətlərin dövründə bizim torpaqlarımız işğal olunubdur. Bütün hakimiyyətlərin dövründə. Yəni müstəqillik əldə eləyəndən sonra hansı siyasi qüvvə hakimiyyətə gəlibsə, onun dövründə torpaqlar işğal olunub. Biz xalq olaraq cəsarətliyiksə, cəsarətliyik, qorxağıqsa, qorxağıq, xəyanətkarıqsa, xəyanətkarıq. Bütün xalqların içərisində xəyanətkarlar olub, olacaq.

Amma hesab edirəm, biz bəzi məsələlər barədə danışanda son dərəcə ehtiyatlı olmalıyıq və ciddi şəkildə ölçüb-biçməliyik ki, bu çıxışın xeyri, yoxsa ziyanı çoxdur. Rəhmətlik Elçibəyin bir sözü var idi, o deyirdi ki, torpaq bərk olanda öküz-öküzdən görür. Yəni lətifəsi bizdən uzaq, mənası o deməkdir ki, öküzlər yeri şumlaya bilməyəndə, biri deyirdi bu öküz güc vermir, o biri deyirdi, bəlkə, bu biri öküz güc vermir. İndi daha çox torpaqlarımızın azad olunması barədə danışmalıyıq, o istiqamətdə təkliflər verməliyik. Torpaqlarımızı azad eləyə bilmirik, başlamışıq bir-birimizi ittiham eləməyə.

Şuşa işğal olunanda da, Sahibə xanım, yeri gəlmişkən, deyim ki, AXCP, yəni Azərbaycan Xalq Cəbhəsi hakimiyyətdə deyildi. O vaxt Yaqub Məmmədov spiker kimi dövlət başçısı funksiyalarını yerinə yetirirdi. Onu da İrana dəvət elədilər, İranda danışıqlar getdiyi dövrdə Şuşanı işğal etdilər. Bunu da, sadəcə, kiçik bir məlumat kimi Cavid Osmanovun diqqətinə çatdırdım. Çox sağ olun.

**Sədrlik edən.** Hörmətli həmkarlar, çıxış eləmək istəyən yoxdur, ona görə də, xahiş edirəm, qanun layihəsinin

üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, yuxarıda vəziyyət necədir?

**Ş.Şabanov**. 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən**. Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 8-ci məsələsi Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Əslində, bu qanun layihəsi indicə qəbul etdiyimiz layihə ilə sıx bağlıdır. Məsələyə dair məlumat vermək üçün, Qüdrət müəllim, sözü yenə də Sizə verirəm. Buyurun.

**Q.Həsənquliyev**. Çox sağ olun. Hörmətli Sədr, Siz artıq qeyd elədiniz, yəni müzakirə etdiyimiz məsələ ilə əlaqədar olaraq İnzibati Xətalar Məcəlləsinə 533-1-ci maddə əlavə olunur. Həmin maddə “Kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulması” adlanır. İkinci oxunuşdan sonra bu məsələ təkrar müzakirə olunub, maddənin həm dispozisiyasında, həm də sanksiyasında müəyyən təkmilləşdirmə işləri aparılıb. Dispozisiyada “internet informasiya ehtiyatları” sözləri çıxarılıb. Yəni burada yalnız məsuliyyət nəzərdə tutulur. Normanı olduğu kimi oxuyum: “Kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında” əvvəl gedirdi “internet informasiya resurslarında da”, o ifadə

oradan çıxarılıb.

Sanksiyada isə əvvəlki variantda cərimə tənbehinə alternativ olaraq şəxsə xəbərdarlıq edilməsi təklif edilsə də, belə seçimin sui-istifadəyə səbəb olacağı ehtimalı nəzərə alınaraq və dil normalarının pozulmasına görə ilk dəfədən cəriməni tətbiq etməmək üçün İnzibati Xətalar Məcəlləsinin 116.1-ci, yəni "İnzibati cərimənin şərti olaraq tətbiq edilməsi" maddəsinə 533-1-ci maddənin əlavə edilməsi təklif olunur. Yəni "eyni inzibati xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsi halları istisna olmaqla", 533-1-ci maddədə nəzərdə tutulan inzibati xətanı törətmiş şəxs barəsində səlahiyyətli orqan, vəzifəli şəxs inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxarır.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 116-cı maddəsinə uyğun olaraq, inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında qərarda şəxsin törətdiyi hüquqpozmanın aradan qaldırılması üçün müddət nəzərdə tutulub. Bu müddət bir ayadək, yaxud hüquqpozmanın aradan qaldırılmasının mürəkkəbliyi və bunun üçün əlavə vaxtın tələb olunması nəzərə alınaraq, bir aydan iki ayadək müəyyən olunur. Bu müddətdə hüquqpozma aradan qaldırılarsa, inzibati cərimə ödənilmir, əks-təqdirdə inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında qərarda nəzərdə tutulan cərimə ödənilməlidir. Cərimənin ödənilməsi şəxsi törətdiyi hüquqpozmanın aradan qaldırılması öhdəliyindən azad etmir. Bu arayışı da diqqətinizə çatdırdım. Üçüncü oxunuşdur, xahiş edirəm, səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə İnsan hüquqları və Mədəniyyət komitələrində də baxılıb. Zahid müəllim, Qənirə xanım, kimin sözü var? Qənirə xanım,

buyurun, amma xahiş edirəm, bir az qısa.

**Q.Paşayeva**, *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Sahibə xanım, Sizə Mədəniyyət komitəsinin sədri olaraq mən çox təşəkkürümü bildirmək istəyirəm. Çünki hər iki qanun layihəsi ilə bağlı cəmiyyətdə müzakirə olunan bəzi məqamlar vardı və onu Sizin diqqətinizə çatdırdım. Sizin tapşırığınızla çox hörmətli Səfa müəllimlə də biz onu müzakirə elədik. Üçüncü oxunuşda cəmiyyətdə müzakirə olunan bu narahatlıqların hamısı aradan qalxdığı üçün, mən düşünürəm ki, bu məsələyə səs verə bilərik.

Eyni zamanda, Nizami müəllimin təklifini dəstəkləyirəm. Mən çox istərdim ki, o müzakirələrə Mədəniyyət komitəsi də dəvət olunardı. Amma, ümumiyyətlə, Nizami müəllimin təklifləri ilə bağlı Mədəniyyət komitəsində ayrıca bir dinləməyə, doğrudan, ehtiyac var. Çünki mütəxəssislər arasında bu mənada müəyyən yanaşmalar var, inanırıq ki, bu istiqamətdə də müzakirələr öz faydasını verə bilər. Təşəkkür edirəm.

**Sədrlik edən**. Çox sağ olun. Təbii, Sizin komitə də mütləq orada olmalıydı, ancaq düşünürəm, yenə də hansısa ayrı bir dinləmələri Siz təşkil edə bilərsiniz. Zahid müəllim, sözünüz varmı bununla bağlı? Komitə sədri kimi.

**Z.Oruc**. Hörmətli Sədr, mən, doğrusu, söz demək istəmirdim.

**Sədrlik edən.** Əgər sözünüz yoxdursa, danışmayın.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Z.Oruc.** Nəyə toxunmaq istəyirəm? Doğrusu, istəmirdim buna yer ayrılsın. Ümumiyyətlə, Siyavuş müəllim dedi, ondan əvvəl başqa bir məqamın üzərində dayanmaq istəyirəm.

Təşəkkür edirəm ki, həm Sizin təklifinizlə, həm də Əli müəllimin yaxından iştirakı ilə qanunvericilik təşəbbüsünün subyekti bu məsələ ətrafında "xəbərdarlıq edilir" ifadəsinin mətnə daxil olmasını qəbul etdi.

Bu əsnada qanun qəbulu ən başlıcası Dövlət dilinin qorunmasını, birinci olaraq mənəvi məsuliyyət kimi onun zəruriliyini möhkəmləndirir. İnzibati Xətalar Məcəlləsinin də ən ali məramı, mənası birinci olaraq çəkindirici funksiyasındadır.

Lakin hörmətli Siyavuş müəllim bəzi məsələlərə toxundu, istəyirdim, qısa olaraq bunu deyim. Bəli, əlbəttə, informasiya silahdır, təəssüf olsun ki, indi informasiyadan tankdan, topdan daha çox bəhrələnirlər və bu gün dövlətlərin qoruyucu zirehini sındırmaq, dövləti idarə edən şəxslərin ətrafında mənfi informasiya mühiti yaratmaq, vətəndaş-dövlət münasibətlərini məhv eləmək üçün bundan çox ustalıqla istifadə edirlər. Adını çəkmək istəmirdim, amma Cəmil Həsənli 6 il bu parlament salonunda, – bunu, xüsusilə də yeni həmkarlarımız üçün qeyd edirəm, – möhtərəm cənab Prezident bu salona daxil olanda bizimlə bərabər ayağa qalxıb. Mən seçki dövründə o adamın üzünə demişəm, soruşmuşan ki, ondamı saxta olmusan, yoxsa, indimi saxtasan? Adam 6 il ulu öndərin Fəxri xiyabanda məzarını ziyarətdə iştirak edib və baş əyib. Əslində, o dövr düz eləyib. Amma o əyilən başın arxasında başqa niyyəti olubsa və belə görünür ki, olub, bu onun saxtakarlığıdır, ilk növbədə alim və ziyalı adına uyğun deyil. İrandan, Ermənistandan, ta Rusiyayadək bu gün dünyanın hər yerinə o ölkələrdən siyasi hakimiyyətdən incik düşən insanlar gedir və bu, həmişə olacaq. Lakin onların heç biri bizim bu, özünü mühacir adlandıran və informasiya məkanının üzərindən bir android sistemli

telefonunu götürüb dövlətinə, hökumətinə, xalqına qarşı bu şəkildə rəzil kompaniya aparmır. Bizim informasiya məkanımız hər gün zəhərlənir. Mən hərdən fikirləşirəm ki, 20 faiz coğrafiyamız işğal altındadır, görəsən neçə faiz informasiya ərazimiz işğala məruz qalıb. Biz hər gün onları görməkdəyik. Cəmil Həsənli keçən dəfə 1995-ci ildə ulu öndərimizlə danışıqlar aparan Britaniya Baş nazirinin yanında bu məxfi görüşü qeydə alan şəxsin yazısını, üzərindən 25 il ötəndən sonra... Bu, vacibdir, xahiş edirəm, səbr eləyin, mən bunu deyim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən**. Musa müəllim, xahiş edirəm. Hörmət edək.

**Z.Oruc**. Üzərindən 25 il vaxt keçəndən sonra həmin məxfi qrifli informasiyalar artıq açıq yayıma verilir. Həmin sənədlə tanış olun, görəcəksiniz ki, ulu öndər Britaniya Baş naziri ilə Qarabağ davasını necə eləyib. Azərbaycan–Amerika münasibətlərini qurub necə inkişaf etdirmək üçün Britaniyanın mövqeyini qazanmaq yönündə həmin o bağlı qapılar arxasında ulu öndər nələr deyir. O nöqtələrin heç birinə diqqət ayrılmayıb. Əvəzində hansısa bir ifadə üzərindən fikir söylənilir.

Cəmil Həsənli ulu öndər haqqında, – bu salonda, özüm də şahidiyəm, onlarla insanımız bilir, – kitab yazmağa hazırlaşırdı. Çünki onda ictimai əsaslarla fəaliyyət göstərən təhsil komissiyası mövcud idi və o, elə hesab edirdi ki, Xalq Cəbhəsi dövündəki vəzifəsini qaytarıb bərpa eləyəcək. Bu dərəcədə rəzillik olmaz. Amerika Birləşmiş Ştatlarında oturub, guya ki, bu məkanı adamlar tanınır. 2010-cu ildə seçilə bilmədi və indi təkrar bütün küdurətini bəlli mərkəzlərin məxfi şifrəli dosyeləri ilə Azərbaycana qarşı yönəldib. Təsəvvür eləyin, sivit sistemi maliyyə bank

sektorunda nadir bir modeldir, bura hər adamın əli daxil olmaz, oradakı informasiyaları guya çirkli pullar adı altında Azərbaycanın üzərinə çevirməkdədirlər. Məqsəd aydındır. Dövlətin ətrafında daim belə bir özünümüdafiə mövqeyi yaratmaq ki, böyük, ali ideyalar olmasın, insanlarla dövlət arasında birlik nümayiş olunmasın, bunun üzərində bunlar kompaniya aparsınlar. Bir baxın, görün İrandan, Ermənistandan incik düşən adamlar belə kompaniya aparırlar yoxsa, yox? Tapsanız linklərini bizə də göndərin. Yoxdur.

Ona görə mən burada istəyirəm ki, ara-sıra bizim həmkarlarımız müxalif qüvvələrin, o rəzil müxalif dilinə, – mən hesab edirəm, o dil düşmən dilidir, – reaksiya verəndə, bəziləri yerdən bunu kənara çıxma kimi qiymətləndirməsinlər. Nədir onda bizim ali vəzifəmiz? Parlament yeni formalaşıb və biz dövlətin zirehinə çevrilməliyik. Əks-halda Prezidenti müdafiəsiz qoyub da, istəyirlər ki, o zirehi sındırsınlar. Onda parlamentin fəaliyyətinin heç bir anlamı olmayacaq. Mən bunu demək istəmişəm. Sağ olun.

**Sədrlik edən**. Çox sağ olun, Zahid müəllim. Tahir Kərimli, buyurun.

**T.Kərimli**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar. Üçüncü oxunuşda mənim çıxışım ancaq səsvermədə iştirak edən insanların iradəsinə təsir eləmək məqsədi daşıyır. Yadınızdadırsa, “Tütün məmulatları haqqında” Qanunla bağlı mən xəbərdar etmişdim ki, sabah hansısa kənddə mağazanın qabağında kimsə siqaret çəkəcək, kim onu cərimə edəcək, yəni bu Qanun işləməyəcək. Eyni zamanda, məndə indi hazırda qəbul etdiyimiz bu qanunun işləməməsi qorxusu da var. Komitədə də dedim, yenə deməyə məcburam. Gördüm çıxış eləyənlər var, dedim mən də bir çıxış edim. Dövlət

adamı, deyək, gəldi Azərbaycan TV-yə, böyük dövlət vəzifəli şəxsdir, dövlət dilində yaxşı danışa bilmir. O, necə cəzalandırılacaq, o televiziyamı, ya həmin adam? Misal çəkdim. Başqa bir məsələ var. Komitələrin birgə iclasında da müzakirə olunub. Mən dilçi deyiləm, Azərbaycan dilçiliyi və Azərbaycan dilinin inkişafından və onun mərhələlərindən danışa bilmirəm, bunun haqqında böyük alimlər yazıblar. Amma Azərbaycanın dövlət dili və ədəbi dilinə təsir eləyən hüquqi aktlar var ki, onların, sadəcə olaraq, adlarını çəkmək istərdim. Bunlardan birisi, vaxtilə Yermolovun bizim məktəblərdə fars dilinin əvəzinə türk-tatar dilinin keçilməsi haqqında qərarı idi. Məhz o vaxtdan bizim çox ciddi ziyalılarımız yetişdi. Nəhayət, həmin milli ziyalılarımız 1918-ci ildə Dövlət dili haqqında Qanun qəbul etdilər.

İkinci, burada 1932-ci ildə SSRİ Elmlər Akademiyasının Qafqaz bürosunun Azərbaycan şöbəsi Azərbaycan dilinin, ad çəkmək istəmirəm, müəyyən dialekti əsasında ədəbi dil haqqında qərar verdi.

1932-ci ildən indiyə kimi ədəbi dilimiz dəyişmir. Doğrudan da, bizim deyək ki, Vaqifin, Şəhriyarın, Aşıq Ələsgərin, Abbas Səhhətin gözəl dilidir və bu dili çox müdafiə edirəm. Doğrudan da, çox haqlı olaraq burada reklam vasitələri haqqında əlavələr olundu ki, reklam vasitələrində dilin pozulmalarına görə ciddi cəza vermək lazımdır. Eyni zamanda, mən, ümumiyyətlə, dövlət dili haqqında dəfələrlə çıxış eləmişəm. Onun üçün də ciddi qorunmasının, cəzaların da tərəfdarıyam. Ancaq Azərbaycan dilinin yazısı ilə bağlı heç bir problem yoxdur. Yəni qrammatikamız var, fonetik cəhətlər var. Burada məsələ qaldırıldı, doğrudan da, 18 il əvvəl Dövlət dili haqqında Qanun qəbul edilib və bunun bir sıra düzəlişlərə ehtiyacı

var. Bu zaman da Cənubi azərbaycanlılarımızın dilini də yaddan çıxarmamalıyıq. Amma mən dediyim başqa bir şeydir. Bilmək lazımdır.

Mən çox təəssüf edirəm ki, akademik dairələrdə, bizim komitələrdə də belə söhbətlər oldu, müəyyən regionlarda ləhcələrlə danışılır, bu Azərbaycan dili deyil. Konkret, hətta Şəki ləhcəsinin adı çəkildi. Mən hesab edirəm ki, bütün bölgələrdə hansı ləhcədə, hansı dialektdə danışılmasından asılı olmayaraq, bu, dövlət dilidir, Azərbaycan dilidir. Ola bilər ədəbi dil deyil. Ona görə də heç kəsi ləhcə ilə danışdığına görə cəzalandırmaq olmaz. Mən sizdən, xahiş edirəm, redaktorları, başqa adamları işə götürəndə müqavilə bağlayın, dövlət dilini, Azərbaycan ədəbi dilini bilmirsə, işə götürməyin. Yaxud o dildə danışmırsa, işdən xaric edin. Əmək qanunvericiliyində "Reklam haqqında" Qanunda, digər qanunvericilikdə dəyişikliklər olsun. Amma dilə, mədəniyyətə, danışığa görə cərimə eləməyi mən düzgün hesab etmirəm. Biz hamımız dövlətimizi çox istəyirik. Kim bilmir dilimizi bilmir, Milli Məclisdə dövlət dili, yəni Azərbaycan dilindən başqa rus dilində də danışa bilər. Qoy danışsın. Yaxud bizim məmurumuz Azərbaycanın dövlət dilini bilmir, qoy, rusca danışsın, nə olar, altından azərbaycanca titrlərlə yazılar. Amma danışıq çox müxtəlifdir, hamı qrammatik, yazı dili danışa bilmir. Mən keçən dəfə burada misal gətirdim, əhalimizin bəzən 80 faizinin işlətdiyi ifadələr var ki, onlar dövlət dili ilə düz gəlmir. Ona görə mən də, xahiş edirəm ki, bunu nəzərə alasınız. Fiziki şəxsləri, insanları hər şeyə görə cəzalandırın, amma danışığa görə cəzalandırmaq məsələsi...

**Sədrlik edən.** Sağ olun. Mən düşünürəm ki, bu məsələləri siz dinləmələrdə kifayət qədər müzakirə eləmisiniz,

elə deyilmi, Zahid müəllim? Tahir müəllim, özü də deməyin ki, dilin tarixini bilmirsiniz. Dilin tarixini bilirsiniz. Aydın Hüseynov, buyurun.

**A.Hüseynov.** Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Hörmətli həmkarlarım, hər biriniz kimi, mən də çalışıram ki, hər hansı bir məsələdə fundamental da olmasa, müəyyən bir tərzdə, belə deyək, təhsilim və ya bilgim yoxdursa, o barədə nəyi isə danışmayım. Sadəcə olaraq, burada elə bir məsələ var ki, ola bilər fikirlərim subyektiv olar, amma bununla belə münasibətimi bildirmək istəyirəm.

Birinci növbədə, mənim 2 sualım var.

Birinci, qanun hazırlanıb, hər bir hazırlanan qanun mütərəqqidir, orada zəhmət var, əziyyət var, sözsüz, təşəkkürümüzü bildirməliyik. İkinci sualım nədən ibarətdir? Bu qanunun qəbul olunması hansı zərurətdən irəli gəlir? Zərurət nə idi ki, bunu vacib edir? Xahiş edirəm, bu, əsaslandırılardı.

İkinci hər bir qanun qəbul olunarkən, hansı qanun olur-olsun orada bir itirəcəyimiz, bir qazanacağımız var. Anoloji bir misal deyim. Vergi Məcəlləsi ilə bağlı biz qanun qəbul eləyirik. Hörmətli Tahir müəllim keçən dəfə təqdim etdi. Məcəllədə dəyişikliyi zəruri edən pandemiya dövrüdür. Nə itiririk, 114 milyon, nə qazanacağıq, bizim növbəti dinamik inkişafımızı. İndi bu qanunu qəbul edərkən zərurət nədir, nə itirəcəyik və nə qazanacağıq? Mən hesab edirəm ki, – yenə deyirəm ədəbiyyatçı olmadığım üçün, – burada böyük akademiklər var, dilçilər var, şairlər var, bəstəkarlar var, onların fikirləri daha inandırıcı olar. Sadəcə olaraq, bir daha deyirəm, fikrim subyektiv ola bilər. Burada bizim itirəcəyimiz nə ola bilər? Əgər reklamdan söhbət gedirsə, yerli istehsal olan məhsullarımızın

reklam bazarını itirəcəyik. Misal çəkək, ikinci bir səbəbdən onsuz da indiki dövr daxili turizmin inkişafını daha da hesab edir. Daxili turizmin reklamını itirəcəyik.

Niyə? Əgər daxili istehsaldan söhbət gedirsə, bir Şəki paxlavası bişirən, onu daha gözəl reklam edə bilər, daha şirin, belə deyək, daha mənalı təqdim edə bilər. O, təqdim edərkən, – sözsüz, təkrar olunmayan Şəki ləhcəsinin özü nadir bir ləhcədir, – o ifadələrlə deyəndə daha gözəl alınır, o reklamı daha da dəyərli edir. İkinci bir tərəfdən, əgər biz tutaq ki, deyirəm, Naxçıvana səfər etmək, Duz dağına getmək istəyiriksə, o reklam kimi Naxçıvan ləhcəsində, Naxçıvan şivəsində səslənsə, nə qədər cəlbedici olur. Digər tərəfdən, itirəcəyimiz nə olacaq? İtirəcəyimiz onsuz da qloballaşmanın...

**Sədrlik edən.** Aydın müəllim, mən çox üzr istəyirəm, Sizin suallarınız birinci oxunuşda düzgün olardı, çünki konseptual yanaşmadır. Artıq bu, üçüncü oxunuşdur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yazılı sürətdə də verə bilərsiniz. Qüdrət müəllim, Sizin sözünüz var? Buyurun.

**Q.Həsənquliyev.** Sahibə xanım, tam haqlısınız, sözün doğrusu, birinci oxunuşda da, ikinci oxunuşda da bu məsələlər qaldırıldı. Bizim də izahatımız oldu ki, burada söhbət nə şivədən, nə dialektdən, nə ləhcədən getmir. Bəzi hallarda çox təəssüf ki, bizim televiziyalarda, sizə açıq deyirəm, tərbiyəsiz insanlar efirə dəvət olunur. Adam ailəsi ilə oturub efirə baxır, bir də görürük ki, jarqonlardan, sonra aşağılayıcı ifadələrdən istifadə edirlər. O çıxışlarda cəmiyyətə və insanlara açıqdan-açığa hörmətsizlik də ifadə olunur. Yəni saymamazlıq, cəmiyyəti nəzərə almamaq. Bu qanun onunla bağlıdır. Deyildi ki, bu, şivə ilə, dialektlə, ləhcə ilə bağlı deyil. Yəni bunun

izahatının verilməsinə baxmayaraq, 3 oxunuşun üçündə də eyni fikirlər təkrar-təkrar səsləndirilir. Mən ona görə çıxış elədim. Xahiş edirəm, səs verin.

**Sədrlik edən.** Çox sağ olun, Qüdrət müəllim. Eybi yoxdur, təkrarlanmanın özündə də bir fayda var, heç bir kriminal yoxdur. Hörmətli həmkarlar, məsələni səsə qoyuruq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 80 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, sizdə vəziyyət necədir?

**Ş.Şabanov**. 16 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

9-cu məsələyə keçirik. Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində, "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşa təqdim edilir. Bu məsələ haqqında da, Qüdrət müəllim, yenə Siz məlumat verəcəksiniz. Buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli Sədr. Təklif olunan dəyişikliklərin məqsədi "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun icrası ilə əlaqədardır. Ona görə də, xahiş edirəm, səsvermə keçirəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. Qənirə xanım, Sizin komitə də baxılıb, sözünüz yoxdur. Məsələni səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, sizdə vəziyyət necədir?

**Ş.Şabanov**. 16 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, indi isə gündəliyin 10-cu məsələsinə keçirik. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi. Məsələyə dair məlumat vermək üçün, Qənirə xanım, Sizə söz verirəm. Buyurun

**Q.Paşayeva.** Çox sağ olun. Hörmətli Sədr, hörmətli millət vəkilləri. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında təklif olunan dəyişikliklər “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 2019-cu il 5 mart tarixli Qanunun təsdiqi ilə əlaqədar olaraq uyğunlaşdırma məqsədi daşıyır. Uyğunlşadırma məqsədi daşısa da, çox vacib və önəmli dəyişikliklərdi. Birinci və ikinci oxunuşda həmkarlarımız tərəfindən hər hansı bir təkliflər səslənməyib. Üçüncü oxunuşda səs

verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Qənirə xanım. Qüdrət müəllim, Sizin komitədə də baxılıb. Sözünüz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çıxış eləmək istəyənlər var. Aqiyə xanım Naxçıvanlı. Buyurun, Aqiyə xanım.

**A.Naxçıvanlı.** Çox sağ olun, Sahibə xanım. Çox hörmətli həmkarlarım, biz "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda dəyişikliyi müzakirə edirik. Mən də bu dəyişikliklərə səs verəcəyəm. Çünki qədim abidələrimiz tarixi məkanlar xalqımızın keçmişini yaşatmaqla yanaşı, gələcəyimiz üçün də çox böyük əhəmiyyət kəsb edir. Biz qədim tariximizi dünyaya tanıtmaq, sübut etmək üçün yazılarımızdan çox abidələrimizdən istifadə edirik. Deputat olduğum Oguz, Qəbələ rayonlarında da yaşı əsrləri, minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Bu abidələrin 17-si ölkə, 23-ü yerli əhəmiyyətli abidələrdir və bunlar Nazirlər Kabinetində təsdiq olunmuş, Oğuz rayonu ərazisində dövlət mühafizəsinə götürülmüşdür. Lakin mən qeyd etmək istəyirəm ki, abidələrin əksəriyyəti dağılmış, bəziləri itmək üzrədir, bəziləri isə qəzalı vəziyyətdə bərpasını gözləyir. Düzdür, qeydə alınmış abidələrin mühafizəsi dövlət tərəfindən həyata keçirilir, lakin bu, onların məhv olmaqdan qorumur. Restavrasiya işlərinə ciddi ehtiyac var, bərpa üçün illər ilə edilən müraciətlər indiyədək heç bir nəticə verməmişdir.

Abidələrin və tarixi yerlərin dağılması xalqın, millətin varlığının məhv edilməsidir. Ona görə də mən aidiyyəti qurumların diqqətini bu məsələyə cəlb etmək istəyirəm. Dəyişikliklər ola bilər, ancaq bu abidələr qorunmalıdır və nəsildən-nəslə ötürülməlidir. Əlalxüsus Mədəniyyət Nazirliyinin diqqətini bu məsələyə cəlb etmək istəyirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Aqiyə xanım. Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, buyurun.

**Ş.Şabanov**. 16 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, bununla da üçüncü oxunuşda baxılan qanun layihələri başa çatdı. Mən baxıram ki, bizim fasiləyə 7 dəqiqə qalıb. Əgər etiraz etmirsinizsə, iclasımızı fasiləsiz davam etdirək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Beləliklə, biz gündəliyin 11-ci məsələsinə keçirik. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunacaqdır. Bu layihə uyğunlaşdırma xarakteri daşıdığına görə bir oxunuşda qəbul ediləcəkdir. Məsələ barəsində məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadəyə söz vermək istəyirəm. Mahir müəllim, buyurun.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, Sahibə xanım. Hörmətli Sədr, hörmətli millət vəkilləri. 2019-cu il iyulun 27-də "Aqrar sığorta haqqında" Qanun qəbul edilmişdir. Həmin qanun Azərbaycanda aqrar sığorta sisteminin formalaşması, kənd təsərrüfat istehsalçılarının maraqlarının qorunması, istehsalın və istehsalçının dəstəklənməsi məqsədi daşıyırdı. Qanun qəbul olunana qədər ölkəmizdə aqrar sahədə sığorta sistemi Mülki Məcəllə və "Sığorta haqqında" Qanunla tənzimlənirdi. Bu qanun qəbul olunduqdan sonra bugünkü müzakirəyə çıxartdığımız qanunun uyğunlaşması isə "Aqrar sığorta haqqında" Qanunun tənzimləməli olduğu maddələr Mülki Məcəllə və "Sığorta haqqında" Qanunla tənzimlənəcəkdir.

Konkret olaraq bildirmək istəyirəm ki, "Aqrar sığorta haqqında" Qanun qəbul edildikdən sonra kənd təsərrüfatında heyvan və bitki növlərinin sığortası həyata keçirilir. Əgər "Aqrar sığorta haqqında" Qanunun müvafiq maddələrində hansı kənd təsərrüfatına aid olan heyvan və bitkilərin adlarına rast gəlinmirsə, bu halda bu məsələlər Mülki Məcəllə və "Sığorta haqqında" Qanunla tənzimlənir. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Mahir müəllim. Bu qanun layihəsinə Aqrar siyasət komitəsində də baxılıb. Tahir müəllim, sözünüz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Çox sağ olun. Çıxış üçün Razi Nurullayev yazılıb. Razi müəllim, buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm. Xanım Sədr, hörmətli millət vəkilləri. Mənim "Sığorta haqqında" Qanunla bağlı bir təklifim olacaq. Onu əsaslı sayıram. Amma ona keçməmişdən öncə, kiçik bir məsələyə münasibət bildirmək istəyirəm.

Mən təəssüf edirəm ki, çox hörmət etdiyim millət vəkilləri AXCP–Müsavat cütlüyü ifadəsini tez-tez işlədirlər. Bu ifadəni ən çox Prezident İlham Əliyev işlədir. Ona olar, ölkə Prezidentidir, ondan böyük yoxdur. Ondan böyük Konstitusiyadır və onun dedikləri də Konstitusiya ilə ziddiyyət təşkil eləmir. Yəni Prezident bunu deyir, deyə bilər.

Amma mən AXCP sədriyəm və mən 2015-ci ildən böyük məşəqqətlər keçib bura gəlmişəm və burada AXCP şinelindən çıxmış çox hörmətli millət vəkillərimiz oturur. Elə mənim yanımda oturan hörmətli Tahir Kərimli, Qüdrət Həsənquliyev, – mən Qüdrət Həsənquliyevin dediyi fikirlər ilə tam razıyam, – Fazil Mustafa, Əli Məsimli və əgər digərlərini unutdumsa, üzr istəyirəm. Mənə belə gəlir ki, biz əgər qəbul ediriksə, bütün pisliklərin astanasında Əli Kərimli dayanır, gəlin, onu adı ilə deyək. Əli Kərimli deyək, bu netdir. Yəni Əli Kərimliyə keçib, fırlanıb AXCP, Müsavat və AXC deməyin yeri yoxdur. Ümumiyyətlə, Müsavatı deməyin isə heç yeri yoxdur. Mən Müsavatın vəkili deyiləm. Amma, sadəcə olaraq, ədalətin bərqərar olmasını istəyirəm. Onun üçün də çox xahiş edirəm ki, çıxışlarınızda həm də mənim AXCP sədri olduğumu, ən azından məni və burada oturan digər hərəkat iştirakçılarını nəzərə alasınız.

Hörmətli xanım Sədr, aqrar sığorta ilə bağlı bir narahatlığımı nəzərinizə çatdırmaq istəyirəm. Biz hər zaman deyirik, müvafiq icra orqanı. Əgər aqrar tibbi sığorta ilə bağlı, deyək ki, bir taxıl zəmisi yandı, birinin həyətyani sahəsində nə isə baş verdi, əkdiyi məhsul ziyana getdi. O zaman onu icra edən orqan gələcək və razılaşacaq ki, sənə 100 manatlıq ziyan dəyib və mən sənə 1000 manat yazıram 500 mənim 500 sənin və ya 700-ü mənim 300-ü

sənin. Həmişə bu, belə olub. Mən də kənddə yaşamışam, görmüşəm və kənddə qohumlarım da var. Əgər biz bu Qanunda dəyişikliyi bu şəkildə qəbul eləsək, bu, belə də olacaq. Onun üçün də mən təklif edirəm ki, aqrar sığortanın verilməsinin müəyyənləşdirilməsində mütləq şəkildə ictimai təşkilatlar da, ağsaqqallar da iştirak etsinlər. Ümumiyyətlə, bu tərzdə bir ictimai şura yaradılsın, məhz arbitr rolunu oynasın. Mən bu təklifin nəzərə alınmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş müəllim, çıxış eləmək istəyirsiniz. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Razi müəllim burada bir məsələyə toxundu. Razi müəllim, doğrudan da, o dövrü təftiş eləyəndə görürük ki, orada bir nəfər, iki nəfər ilə qurtarmaq mümkün deyil. Orada elə bil o adamlar xüsusi yığılmışdı. İndi mən başa düşürəm, Siz özünüzü ora aid eləmirsiniz, elə Sizin özünüzü də Əli Kərimliyə alternativ olduğunuza görə partiyadan çıxartdılar. Həmin vaxt xaric elədilər ona görə ki, sədrliyə alternativ namizədliyini vermişdi. Amma ümumi götürəndə, həmin dövrdə hansını silkələsən görürsən ki, hər birinin nə qədər problemləri çıxır. Müsavatı qeyd edirsiniz.

O Müsavat ilə bu Müsavatı bir-birinə qarışdırmayın. O Müsavatdan İsa Qəmbərə bunu heç kəs vəsiyyətnamə ilə verməyib. O Müsavat Azərbaycan xalqının, Azərbaycan millətinin yaratdığı bir partiya idi, sonradan Azərbaycan Xalq Cümhuriyyəti quruldu və bu Cümhuriyyətdə ən böyük fraksiyaya rəhbərlik edirdi. Ad ola bilər. İndi 50 adamın adı Həsəndir, Hüseyndir, elə bunların hamısı imam deyil ki. O baxımdan da, yəni Müsavat deyəndə, bu Müsavat o Müsavatla eyni deyil. Mən hesab edirəm ki, bunlara eyni cür yanaşmaq olmaz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuruq, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 12-ci məsələsinə keçirik. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verəcək. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Sədr. Hörmətli həmkarlar, birinci oxunuşda geniş məlumat verilmişdir. Qanun layihəsinin mahiyyəti məhkəmə qərarı ilə hüquqi şəxslərin ləğvi və yenidən yaradılması ilə bağlı məlumatların dövlət reyestrində yerləşdirilməsidir. Birinci oxunuş zamanı əlavə təkliflər daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli

həmkarlar, biz qanun layihəsini ikinci oxunuşda əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, səs verin.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, qanun layihəsi 2 maddədən ibarətdir və biz indi maddə-maddə səs verəcəyik. 1-ci maddə. Xahiş edirəm, qanun layihəsinin 1-ci maddəsinə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, buyurun.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, buyurun.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**S.Qafarova.** Çox sağ olun, qəbul edildi. Hörmətli həmkarlar, indi isə layihəni ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Yuxarıda vəziyyət necədir?

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 13-cü məsələsinə keçirik. "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında" və "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi. Məsələ haqqında məlumat vermək üçün Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli deputat həmkarlarım. Gündəliyimizdə olan bu layihədə 5 qanunda dəyişiklik edilməsi nəzərdə tutulur. Bu, ikinci oxunuşdur. Layihə həmin adı çəkilən 5 qanunun 2018-ci il 12 dekabr tarixli "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanuna uyğunlaşdırılması məqsədi daşıyır. Komitəmizdə onlayn olaraq müzakirəyə çıxarıldı, birinci oxunuşdan sonra təkliflər olmadı, əlavə və dəyişikliklərə ehtiyac qalmadı. Yenidən müzakirənizə çıxarılmışdır, xahiş edirəm, müsbət rəyinizi bildirəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Tahir Rzayev, Sizin komitədə də baxılıb, sözünüz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Mən görürəm ki, yazılanlar var. Buyurun, Razi Nurullayev.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım Sədr. Hörmətli millət vəkilləri, gözəl qanunlar yazılır, qəbul edilir, millət vəkilləri ciddi işləyir, əziyyət çəkir və qanunlar qəbul olunur. Amma qanunlar bir çox hallarda kağız üzərində qalır. Bələdiyyələrlə də bağlı çox məsələlər kağız üzərində qalıb. Burada yazılan bəndləri mən oxuduqca, gözümün qabağında canlandırmaq istədim ki, mən hər hansı bir bələdiyyənin burada yazılan işləri görməsinin şahidi olmuşammı? Xeyr. Mən nəyin şahidi olmuşam? 1999–2009-cu illər ərzində 2 dəfə seçilən bələdiyyələrdə Azərbaycanda bir qarış torpaq qalmadı, hamısını satıblar. O zaman Bakı ərazisində 100 milyonlarla məbləğdə torpaqları satıb rüşvətxorluğa, korrupsiyaya yol veriblər. Bu gün insanlar ev tikməyə yer tapmır. Onun üçün də birinci növbədə 1999–2009-cu illərdə seçilən bələdiyyələrin fəaliyyəti yoxlanılmalı və çox ciddi həbslər həyata keçirilməlidir. Onların arxasında dayananlar aşkara çıxarılmalıdır.

İkincisi, bələdiyyələrin icra hakimiyyətindən asıllığı dayandırılmalıdır. Bu gün bələdiyyələrin bir çoxu icra hakimiyyətlərin başqa bir qoludur, ya onların gələn qonaqlarının cibinə pul qoyur, ya onları yola salır, ya da sədr seçilmək üçün icra başçısına rüşvət verir. Bələdiyyələrin nə səlahiyyəti var? Bələdiyyələr başı qapazlı bir quruma çevrilib.

**Sədrlik edən.** Hörməti Razi müəllim, mən Sizdən çox xahiş edirəm, qanun ətrafında danışasınız. Ümumi, konseptual və bələdiyyələrlə bağlı Sizin ümumi fikirləriniz yox, xahiş edirəm, qanun ətrafında danışasınız. Fikriniz varsa, davam edin.

**R.Nurullayev.** Hörmətli Sahibə xanım, mənə belə gəlir ki, mən elə bu qanun ətrafında danışıram. Hörmətli Sədr, məhz buna təsir edəcək amilləri deyirəm. İcazə versəniz, mən iki məsələyə də münasibət bildirim və bununla da yekunlaşdırıram. Bir çox bələdiyyələr, eyni zamanda, icra hakimiyyətləri müəyyən işləri görür, biz şahidi oluruq, deyir, bu işlərimizi daxili resurslar hesabına gördük. Hörmətli xanım Sədr, daxili resurs nədir? Biz desək ki, parlamentin daxili resursu varmı? Yoxdur. Daxili resurs rüşvətdir. Əgər kimsə, daxili resursla nə isə edirsə, demək ki, o, rüşvətdir.

Əlavə olaraq, koronavirusla bağlı fonda köçürülən məbləğlərin özündə də müəyyən daxili resurs və korrupsiya amilləri var. Bir süpürgəçinin, bir sosial yardım alan insanın əmək haqqından tutub fonda köçürməklə daxili resurslar hesabına bunu etdim demək də, elə cinayət törətmək anlamına gəlir. Onun üçün də mən təklif edərdim ki, ümumiyyətlə, birinci növbədə bu qanunun həyata keçirilməsi üçün vacib olan əməli addımlar atılsın.

Mən bu qanunun əleyhinə səs verəcəyəm. Mənim 1

səsim var, sadəcə olaraq, bunu mövqeyim kimi açıqlayıram. Mənim 1 səsim heç nəyi həll etmir. Sadəcə, bu, mənim mövqeyimdir və üçüncü oxunuşda da bunu edəcəyəm ki, bələdiyyələrlə bağlı qanunun bu şəkildə qəbul edilməsi onun problemini həll etməyəcək. Bələdiyyələrlə bağlı konseptual yanaşma olmalıdır. Bələdiyyələrlə bağlı konkret olaraq əməli nəticələrə apara biləcək addımların atılmasına ehtiyac var. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail müəllim, buyurun.

**F.İbrahimli.** Təşəkkür edirəm, Sahibə xanım. Bələdiyyələr yarandığı gündən bu ilə qədər mənim bütün siyasi fəaliyyətim bələdiyyələrlə bağlı olub. Kifayət qədər qanunlar qəbul edilib. Bələdiyyə Azərbaycanın siyasi həyatında öz yeri, rolu, mövqeyi olan bir quruma çevrilmək üzrədir. Biz bələdiyyələrlə bağlı olan kifayət qədər qüsur və nöqsanları daim gündəmə gətirmişik, onların aradan qaldırılması üçün təkliflər vermişik və bu sahədə müəyyən addımlar atırıq, atılıb və Azərbaycanın siyasi həyatında bələdiyyələrin, təkrar edirəm, öz yolu, öz mövqeyi var. Qüsurlar, nöqsanlar var və bu qüsur və nöqsanların üzərinə gedən bizim deputatlar var. Komitələrdə bu fikirləri gündəmə gətirənlər var.

Bütövlükdə, bələdiyyələrin 20 illik fəaliyyətinə kölgə salmaq, hamısını rüşvətdə təqsirləndirmək insan hüquqlarının pozulmasıdır, yaxşı işçilərin fəaliyyətinə qara yaxmaqdır. Mənim 20 illik siyasi fəaliyyətimə də bunun müəyyən təsiri olur. Ona görə Razi müəllim, çox xahiş edirəm, danışanda bir az diqqətli olun. Sizin bu qısa müddətdə çıxışlarınıza qulaq asanda, bir mərsiyəçi olub, – adı da elə Sizin adınıza oxşayır, Sizin adınız Razidir, onun adı Racidir, – o deyirdi "bu əzadan ağlar Raci, bilinər aşiqanə, deyə bilmərəm bu hali, gətirmərəm bəyanə". İndi

Siz hər dəfə danışanda adamın yadına o mərsiyələr düşür. Diqqətli olun fikrinizdə. Təşəkkür edirəm.

**Sədrlik edən.** Əli müəllim, Siz münasibət bildirmək istəyirdiniz. Buyurun.

**Ə.Hüseynli.** Hörmətli həmkarlar, sözsüz ki, hər bir millət vəkili təqdim olunan layihələrin bəlkə də adlarına baxıb ilk baxışdan o mövzu ilə bağlı çıxış etmək istəyir. Bu təbiidir, buna təbii, dözümlə də yanaşmaq lazımdır. Amma məsələ burasındadır ki, indi təqdim olunmuş layihə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun müddəalarının burada adı çəkilən 5 qanuna köçürülməsidir. Bu baxımdan, 7 nəfər millət vəkili yenidən yazılıb, fərqli problemləri qaldırmaq məqsədi anlaşılan deyil. Ona görə, çox rica edirik ki, uyğunlaşdırma ilə bağlı qanun layihələrində həmin qanunlarla bağlı fərqli problemləri qaldırmayasınız.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Etiraz etmirsinizsə, səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 73 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 74 |
| Nəticə: Yetərsay yoxdur | |

Şakir müəllim, sizdə vəziyyət necədir?

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Gündəliyin 14-cü məsələsinə keçirik. "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi. Məsələ haqqında Bəxtiyar Əliyev məlumat verəcək. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Çox sağ olun, Sahibə xanım. Hörmətli deputat həmkarlar, "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi birinci və ikinci oxunuşda Elm və təhsil komitəsində müzakirə edilib. Birinci oxunuşda Milli Məclisdə müzakirə edilibdir. Qanunun mahiyyəti ilə bağlı heç bir irad, təklif, əlavə və dəyişiklik daxil olmayıb.

Bu qanunun qəbul edilməsi olduqca əhəmiyyətlidir. Çünki biz bu qanunu qəbul etməklə Azərbaycanda həyata keçirilən uğurlu təhsil siyasətinin hüquqi bazasını daha da möhkəmləndirmiş oluruq. Belə ki, cənab Prezidentin müvafiq fərmanına uyğun olaraq, Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılmışdır. Ali məktəblərin və eyni zamanda, təhsil müəssisələrinin akkreditasiyası ilə yanaşı, xarici dövlətlərin ali təhsil müəssisəsində təhsil almış şəxslərin diplomlarının ekvivalentliyinin müəyyən edilməsi və onların tanınmasını həyata keçirəcəkdir. Yeni bir funksiyanı da – peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsi ilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınmasını həyata keçirəcəkdir. Bununla da, qanunda olan bəzi boşluqlar aradan qaldırılır və bu da həyata keçirilən islahatların hüquqi bazasını möhkəmləndirmək məqsədi

güdür. Ona görə də deputat həmkarlardan, xahiş edərdim ki, bu qanun layihəsinə səs versinlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Tahir müəllim, Sizin sözünüz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 82 |
| Nəticə: Yetərsay yoxdur | |

Şakir müəllim.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Biz qanun layihəsinin maddə-maddə müzakirəsinə başlamalıyıq. Çıxış etmək istəyənləri də görürəm. Jalə xanım Əliyeva və Sabir müəllim Rüstəmxanlı. Jalə xanım, buyurun.

**J.Əliyeva.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə ölkəmizdə insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, vətəndaşlara keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədi ilə 2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyi-

nin artırılması üzrə Dövlət Proqramı təsdiq edilib. Hazırda ölkəmizdə, ümumilikdə, 51, 40 dövlət, 11 özəl ali təhsil müəssisəsi fəaliyyət göstərir.

2018–2019-cu tədris ilində Azərbaycanın ali təhsil müəssisələrində, ümumilikdə, 170 mindən çox tələbə, o cümlədən bakalavr səviyyəsində 160 minə yaxın tələbə, magistratura səviyyəsində isə 15 minə qədər tələbə təhsil alıb. Hazırda ölkədə 11 özəl ali təhsil müəssisəsində 20 minə yaxın tələbə təhsil alır. Lakin bunu etiraf etməliyik ki, bu universitetlərin içərisində yüksək səviyyəli təhsil verən universitetlər olmaqla bərabər, eyni zamanda, bugünkü təhsilin tələblərinə və özəlliklə də cənab Prezident tərəfindən bütün sahələrdə həyata keçirilən islahatlar paketinə cavab verməyən universitetlər də vardır. Bəzi universitetlərdə əmək bazarının dəyişən tələbləri nəzərə alınmır və real tələbat olmadan eyni ixtisaslar üzrə tələbə qəbulu elan edilir.

Ali təhsil müəssisələrində kadr hazırlığı, həyata keçirilən ixtisaslar üzrə təhsil haqları ona sərf olunan xərclərin smetası əsasında müəyyən olunur. Belə ki, 1 il ərzində tədris olunan fənlərə görə müəllimlərə ödəniləcək əmək haqqı sərf olunacaq bütün resurslar hesablanaraq müəyyənləşir. Bəzi universitetlər təhsil haqqını formalaşdırarkən yüksək məbləğdə vəsait ödəyib təhsil alan tələbələrin sonradan əmək bazarında iş tapması, alacağı əmək haqqını da nəzərdən keçirməlidirlər. Ali təhsil müəssisələrinin, xüsusilə də özəl universitetlərin məzunları əmək bazarında iş tapa bilmirlər. Elə buna görə də kadr hazırlığı aparılarkən iqtisadiyyatın inkişafının prioritet istiqamətləri, əmək bazarının ortamüddətli dövr üçün planlanması mütləqdir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29

dekabr tarixli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılmışdır. Düşünürük ki, Agentlik təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirərkən həmin universitetlərə qəbul edilən tələbələrin giriş balını, verilən təhsilin səviyyəsini, aldıqları ixtisas üzrə məzun olduqdan sonra əmək bazarında iş tapmaq prespektivlərini, həmin ixtisasların rentabelliyini və ən nəhayət, ödənilən təhsil haqqının bütün bu kriteriyalara uyğun olub-olmadığını ciddi şəkildə monitorinq etməlidir. Çünki həmin tələbələr, bir daha qeyd etmək istəyirəm ki, islahatlar yoluna qədəm qoymuş və bu yolda cənab Prezidentin iradəsi ilə inamla irəliləyən Azərbaycanın gələcək qurucuları içərisində yer alacaqlar. Bu amili bütün halda nəzərə almaq çox faydalı olardı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı, buyurun.

**S.Rüstəmxanlı.** Mən də hesab edirəm ki, "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi son dərəcə vacibdir. O, bu gün respublikanın təhsil həyatında çox adamları narahat edən bir problemin həllinə kömək edə bilər. Bu, Azərbaycandan kənarda təhsil alıb və Azərbaycana qayıtmış gənclərin diplomunun tanınması məsələsidir. İllərdir bu məsələ həll olunmur, bir çox subyektiv amillər ortaya çıxır, gərəksiz sənədlər tələb olunur və sair. Bunu o işlə məşğul olan adamlar çox yaxşı bilirlər. Ona görə də xüsusən belə bir qurumun yaradılması mən hesab edirəm ki, bir çox cavanların problemini, – yəni onlar millət vəkillərinə, ziyalılara müraciət edirlər, ailələr çıxılmaz vəziyyətdə qalıb, – həll edər. Gedib Azərbaycan universitetlərindən statusu daha yüksək olan universitetlərdə təhsil alırlar, diplomla qayıdırlar, burada bizim təhsil naziri deyir ki, mən bunu tanımıram və şərtləri də qeyri-müəy-

yəndir. Ona görə də belə bir qurum son dərəcədə vacibdir. İnşaallah, obyektiv fəaliyyət göstərər və bu boşluq dolar.

Amma burada bir şeyi mən başa düşmədim. Bəlkə bunun izahı var, sadəcə, mən bilmirəm. Bu adı çəkilən fərmana əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində rüblük hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılsın. Nə deməkdir bu rüblük, yəni 3 ay fəaliyyət göstərəcək, sonra fəaliyyəti dayanacaq? Bunu başa düşmədim, bir də burada, məncə, bu qurumun öz qazancı hesabına yaşaması məsələsi bir sıra problemlər yaradacaq. Yəni adamlar gəlir rüsum ödəyir diplomunu, yaxud peşə təhsil haqqında sənədini tanıtdırmaq üçün. Bu qurum, Agentlik aldıqları, o yığdıqları pulların hesabına öz işçilərinə maaş verəcək. Burada, təbii ki, belə, qeyri-müəyyənliklər ortaya çıxacaq. Mən çox istəyərdim ki, bu məsələ üçüncü oxunuşa kimi araşdırılsın və burada bir dəqiqlik olsun. Bir qurum yaradılır və o da ancaq yığdığı pul ilə dolanır. Təbii ki, orada süni surətdə rüsumların artırılması və qeyri-müəyyənliklər olacaq. Bu, məni narahat edir.

İkincisi, biz bayaqdan dövlət dili ilə bağlı danışırıq. Hər halda biz ilk növbədə qanunlarımızın dilinə də çox diqqətli olmalıyıq. Radiodan, televiziyadan, başqa təşkilatlardan tələb edirik. Amma məsələn, bu "Təhsil haqqında" Qanundakı bir cümləni oxuyuram. 16.4-cü maddədə "akkreditasiya xidməti" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan" sözləri ilə əvəz edilsin. Bir orqanın müəyyən etdiyi ikinci orqan. Yəni dilimiz bu qədər kasıbdır? Burada mötərizədə "qurum" yazılıb. Onda ikinci orqanı çıxardın. Yəni qalsın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyənləşdirilir. Burada dəfələrlə "bu qurum", "bu

orqanının təşkil etdiyi ikinci orqan" yazılır. Ümumiyyətlə, bu, "orqan" sözündən qanunlarda bu qədər bol istifadə etmək lazım deyil. Çünki bunun, siz bilirsiniz, anatomiyada ayrı adları, ayrı mənası var. Burada "müəyyən icra hakimiyyəti", sonra gəlirsən izahatında da "müəyyən icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan". Azərbaycan dili bu qədər kasıb deyil, xahiş edirəm, bu, nəzərə alınsın.

Qalan məsələlər barədə xüsusi bir iradım yoxdur. Amma, eyni zamanda, gəmiçiliklə bağlı sonrakı qanun layihəsi barədə çıxış etməmək üçün onunla bağlı da bir sözümü deyim. O da dil məsələsidir. Orada da bir şey var, necə idi? "Fraxtedən, fraxt" nədir? Fraxt bizim dilimizdə yük deməkdir. Yük daşıyan var, yük verən var, yük ötürən var. Bu fraxt sözü ora düşməsə, dünya dağılmaz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar müəllim, mən bilirəm, Siz cavab vermək istəyirsiniz. İstəyirsiniz, Hicran xanım çıxış etsin, bəlkə hansısa suallar olsa, bir yerdə cavablandırarsınız. Hicran xanım, buyurun.

**H.Hüseynova**. Çox sağ olun, xanım Sədr. Hörmətli millət vəkilləri. Bu qanun layihəsi ilə bağlı bir məsələyə toxunmaq istəyirəm. Burada 16-cı maddədə bu təhsil fəaliyyətinin lisenziyalaşdırılması və təhsil müəssisəsinin akkreditasiyası məsələsi var. Bu, çox ciddi məsələdir. Ona görə ki, – indi təhsilə yaxın olan insanlar bilirlər, – heç təhsilə yaxın olmayan bir çox insanlar təhsil ocaqları yaradırlar. Çox yaxşı ki, son dövrdə Təhsil Nazirliyi tərəfindən bu məsələyə çox böyük diqqətlə yanaşılır. Bu müəssisələrin çoxunun fəaliyyəti dayandırılıb və ümumiyyətlə, belə yeni təhsil ocaqlarının açılması üçün çox böyük tələblər müəyyən olunub. Ona görə də onların fəaliyyətinə imkan verilmir. Mən belə düşünürəm ki, gələcəkdə də bu

istiqamətdə nəzarət gücləndirilməlidir və biz bununla təhsil ilə bağlı olan bir çox problemlərin qarşısını ala bilərik. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun, Hicran xanım. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev**. Çox sağ olun, Sahibə xanım. Hörmətli deputat həmkarlarımızın mülahizələri, əlbəttə, çox maraqlı idi. Amma bunlar bilavasitə bu gün müzakirə etdiyimiz qanunun predmeti ilə heç də əlaqəli deyildi. Yenə də bəzi məsələlərə aydınlıq gətirmək istəyirəm. Əvvəla, biz "Publik hüquqi şəxs haqqında" Qanun qəbul etmişik. Bütün fəaliyyətlər də "Publik hüquqi şəxs haqında" Qanuna uyğun olaraq, tənzimlənir. Burada əsas məqsədlərdən biri də ondan ibarət idi ki, publik hüquqi şəxslərin yaradılması ilə bir tərəfdən, onlara müstəqillik verilir, digər tərəfdən isə, dövlət büdcəsinin yükü azaldılır. Diqqətə çatdırmaq istəyirəm ki, vaxtı ilə xaricdə təhsil almış bizim azərbaycanlı vətəndaş olsun, yaxud xarici vətəndaş Azərbaycana gəldikdə onların müvafiq ixtisaslar üzrə təhsil aldıqları universitetlərin verdikləri sənədlərin həm tanınması, həm də ekvivalentliyi məsələsi vardı. Ola bilər ki, biz onun ekvivalentliyini yoxlayanda həmin ixtisas Azərbaycan dövlətinin standartlarında nəzərdə tutulmuş tələblərə cavab vermədikdə artıq başqa bir məsələ meydana çıxır. O şəxs müəyyən imtahan verə, kurs keçə bilər, yaxud da əgər o, bütün o normativlərə cavab verirsə, bu zaman, həm onun ekvivalentliyi, həm də tanınması məsələsinə baxılır və məsələ də öz həllini tapır.

Digər bir məsələ akkreditasiya ilə bağlı olan məsələdir. Bilirsiniz ki, təhsil müəssisələrinə lisenziyalar müddətsiz verilir. Bu, çox mütərəqqi bir addımdır. Digər tərəfdən isə, təhsilin keyfiyyətini yoxlamaq üçün hər bir təhsil

müəssisəsi 5 ildən bir akkreditasiya keçir. Vaxtı ilə biz Milli Məclisdə qanun qəbul etmişik. "Dövlət rüsumu haqqında" Qanunda bütün təhsil müəssisələri üzrə 8 bənddən ibarət dövlət rüsumlarının məbləğləri göstərilib. Milli Məclisdə o geniş müzakirə olundu. O məbləğlərlə bağlı müəyyən danışıqlar aparıldı və o məbləğlər də bir xeyli azaldıldı. Təhsil müəssisələri üçün bu, heç bir yük deyil, sadəcə olaraq, vaxtı ilə diplomların, yəni xarici ölkələrdən verilmiş sənədlərin tanınması üçün dövlət rüsumu tutulurdu. İndi publik hüquqi şəxs artıq bu xidmət haqqını qəbul edəcək. Ona görə bu dövlət rüsumu ləğv edilir və o dövlət rüsumunun əvəzinə müvafiq icra hakimiyyətinin müəyyən edəcəyi məbləğdə xidmət haqları həmin orqana ödəniləcəkdir. Burada da heç bir problem yoxdur və qanunvericilikdə bu geniş praktikada tətbiq olunan bir məsələdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Hörmətli həmkarlar, biz qanun layihəsinə ikinci oxunuşda maddələr üzrə münasibət bildirməliyik. Layihə 2 maddədən ibarətdir və xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, sizdə vəziyyət necədir?

**Ş.Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.
İndi isə 2-ci maddəyə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Şakir müəllim, sizdə vəziyyət necədir?
**Ş.Şabanov.** 16 deputat lehinə səs vermişdir, 1 nəfər bitərəf qalmışdır.
**Sədrlik edən**. Çox sağ olun, qəbul edildi.
Hörmətli həmkarlar, indi isə, xahiş edirəm, qanun layihəsinin ikinci oxunuşda qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, buyurun.
**Ş.Şabanov**. 16 deputat lehinə səs vermişdir, 1 nəfər bitərəf qalmışdır.
**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.
Hörmətli həmkarlar, gündəliyin 15-ci məsələsinə ke-

çirik. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov təqdim edəcək. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım Sədr, dəyərli həmkarlar. Təqdim olunan qanun layihəsinin ilk oxunuşda artıq təqdimatı edilib. Qısa olaraq nəzərinizə çatdırmaq istəyirəm ki, layihənin ilk oxunuşu zamanı deputat həmkarım Azər Kərimli tərəfindən Mülki Məcəllənin 853.2-ci maddəsində yük göndərənin məsuliyyətinin əhatə dairəsinin daha dəqiq ifadə olunması ilə bağlı təklif səsləndirilmişdir. Qeyd edilən təklif ilk öncə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörməti Tahir müəllimin və Azər Kərimlinin iştirakı ilə öz aramızda geniş müzakirə edilməklə qanunvericilik təşəbbüsü subyektinə çatdırılmışdır. Lakin dəyişiklik təklifi qəbul edilməmişdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Tahir müəllim, sözünüz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, onda qanun layihəsini ikinci oxunuşda əsas kimi qəbul edək. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, necədir vəziyyət?

**Ş,Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən**. Çox sağ olun, qəbul edildi.

Çıxış etmək istəyən yoxdur və ona görə də hörmətli həmkarlar, qanun layihəsinə biz maddə-maddə baxacağıq. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddənin qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, necədir vəziyyət?

**Ş.Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Xahiş edirəm, 2-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

İndi isə, hörmətli deputatlar, qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs verməd i | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Yuxarıda vəziyyət necədir?

**Ş.Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 16-cı məsələsinə keçirik. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. Əli müəllim, xahiş edirəm, məsələ barəsində məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, birinci oxunuşda geniş məlumat vermişdim. Cənab Prezidentin 2016-cı il 29 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Asan Viza" sistemi haqqında Əsasnamə"də 2019-cu il aprelin 9-da dəyişiklik edilərək birdəfəlik və çoxdəfəlik elektron vizaların verilmə müddəti çox qısaldılmışdır. Vizalar müvafiq olaraq, 3 gün, 3 saat və yerində, hava limanında veriləcəkdir. Bu müddəalar, eyni zamanda, qanunlarda da öz əksini tapmalıdır. Təkliflər daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli

həmkarlar, ikinci oxunuşda gərək qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, qanun layihəsinə biz maddə-maddə səs verməliyik. Sizə məlumat vermək istəyirəm ki, bu, kiçik bir layihədir. Ona görə də bu qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, 17-ci məsələyə keçirik. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Bu layihə indi

qəbul etdiyimiz qanun layihəsi ilə bağlıdır. Məsələ barəsində Musa Quliyev məlumat verəcək. Musa müəllim, buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım Sədr, hörmətli millət vəkilləri. Bu layihə də hörmətli Əli müəllimin söylədiyi məsələ ilə əlaqədardır. Burada, birinci oxunuşda təqdim edəndə də izahat vermişdik. Qanunun 7.1-ci maddəsində "turizm vizası" sözlərindən sonra "turistlərə verilən elektron vizalar" sözləri əlavə olunur. Bu, turizmin inkişafı ilə bağlıdır. Turistlərin Azərbaycana gəlişinin asanlaşması məqsədi ilə 3 saat ərzində, yaxud birdəfəlik elektron vizanın beynəlxalq hava limanında verilməsinin real vaxt rejimində həyata keçirilməsi üçün hüquqi əsas yaradır. Xahiş edirəm, qanun layihəsinə dəstək verəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Müzakirəyə keçməmişdən əvvəl, xahiş edirəm, qanun layihəsinin ikinci oxunuşda əsas kimi qəbul edilməsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Çıxış etmək istəyənlər? Nigar xanım Arpadarai, buyu-

run. Buyurun, Nigar xanım.

**N.Arpadarai.** Hörmətli xanım Sədr, hörmətli həmkarlar, təşəkkür edirəm. Ümumiyyətlə, viza prosedurunun asanlaşdırılması məsələsini çox önəmli hesab edirəm və bu Qanunda olan dəyişiklikləri, əlbəttə, alqışlayıram. Kiçik bir təklifim var.

Burada məqamlardan biri məhz Azərbaycan Respublikasının hava limanında real vaxt rejimində viza qaydasına baxılması və verilməsi nəzərdə tutulur. Mən təklif edərdim ki Azərbaycanın Gürcüstanla sərhəddində belə bir qayda tətbiq olunsun. Çünki çox zaman Avropadan və ya Asiyadan Gürcüstana səfər edən turistlər Qafqazı gəzmək, Azərbaycana da səfər eləmək istəyirlər. Belə bir qaydanı gördükləri zaman düşünürlər ki, ola bilsin həmin sərhəd keçid məntəqəsində də bu qayda tətbiq olunacaq. Bu, onlara imkan verərdi ki, qatar vasitəsi ilə və maşınla Azərbaycan ərazisinə səfər eləyə bilsinlər. Əlbəttə, təklifim turistlərin gəlişinin artırılması məqsədi güdür. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nigar xanım. Müşfiq Cəfərov. Buyurun, Müşfiq müəllim.

**M.Cəfərov.** Çox sağ olun. Xanım Sədr, hörmətli millət vəkilləri. Təbii ki, mövcud qanun layihəsi “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliyin təsbit edilməsi məqsədini daşıdığı üçün mən də bu qanun layihəsinin lehinə səs verdim. Ancaq bir neçə təklifim var və mən çox istərdim ki, gələcəkdə bizim Milli Məclisin komitələri, o cümlədən müvafiq qurumlar bu məqamları nəzərə alsınlar.

Azərbaycanda 2 növ giriş vizası mövcuddur. Bilirsiniz ki, bu, birdəfəlik viza və çoxdəfəlik viza adlandırılır. Mən bir çox ölkələrdə, o cümlədən qonşu ölkələrdə araşdırma

apardım və hesab edirəm ki, Azərbaycan üçün, həmçinin 2 dəfəlik vizanı da tətbiq etsək, yaxşı olar. Çünki Azərbaycana gələn turistlər, təbii ki, Gürcüstana da getmək istəyirlər. Gürcüstana getdiyi zaman dönüş edə bilmirlər. Onlar Gürcüstana gəlirlər və Gürcüstandan Azərbaycana gəlib səyahət edib, 2–3 gün ərzində geri dönüş edirlər. Təbii ki, bu, bizim üçün iqtisadi baxımdan da çox səmərəli olar. Çünki bizim hava yollarından istifadə edərlər və Azərbaycanda daha çox müddət qalarlar.

İkinci bir məqam. Bizdə viza rüsumları 3 müxtəlif valyutada ölçülür, dollar, avro və funt-sterlinq. Mən təklif etmək istərdim ki, bunun bir valyuta ilə, manatla olması daha yaxşı, daha məqsədəuyğun olar.

Burada bir məqam da var. Hər ölkə üçün müxtəlif viza rüsumları var. Xahiş edirəm, gələcəkdə bunu da nəzərə alaq. Təbii ki, biz bu məbləği hansı ölkənin bizə nə qədər viza rüsumu tətbiq etməsi ilə ölçürük. Yəni ABŞ-ın vizası 160 dollardırsa, biz də 160 dollar müəyyənləşdiririk, Kolumbiya 150 dollar, Almaniya, Avropa Birliyi ölkələri 35 avro. Yəni bunlar müxtəlifdir. Mən qonşu ölkələri də araşdırdım, o cümlədən inkişaf etmiş, inkişafda olan ölkələri onlarda rüsumlar konkretdir, yəni müəyyən bir rüsum müəyyən edilib. O rüsumu da ödədikdə istənilən ölkəyə fərq qoyulmur. Bu qədər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Müşfiq müəllim. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim.

**Ş.Şabanov.** 17 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul olundu.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu, 18-ci məsələsini müzakirə edəcəyik. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini Mahir Abbaszadə təqdim edəcək. Mahir müəllim, buyurun, söz Sizindir.

**M.Abbaszadə.** Çox sağ olun, Sahibə xanım. Hörmətli Sədr, hörmətli millət vəkilləri. 2018-ci il dekabrın 28-də "İcra haqqında" Qanun qəbul edilmişdir. Həmin qanunun tətbiqi ilə əlaqədar olaraq, indi "İcra haqqında", "Qiymətləndirmə fəaliyyəti haqqında" qanunlarda və Vergi Məcəlləsinə dəyişiklik təklif olunur.

"İcra haqqında" Qanunda dəyişiklikdə nəzərdə tutulur ki, bundan sonra icra məmuru qiymətləndirici dəvət edərkən həmin qiymətləndirici 5 ildən aşağı iş stajı olmayan, ağır və xüsusilə ağır cinayətlərdə, korrupsiya cinayətlərində və iqtisadi sahədə olan cinayətlərdə adı hallanmayan, məhkum edilməyən şəxs olmalıdır.

Vergi Məcəlləsində də eyni dəyişiklik nəzərdə tutulur. Bu gün qüvvədə olan "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanuna əsasən indiyə qədər ekspertin və qiymətləndiricinin əməyinin dəyəri razılaşma əsasında ödənilirdi, amma "İpoteka haqqında" və "İcra haqqında" qanunlarda dəyişikliklə əlaqədar olaraq təklif olunur ki, bundan sonra

qiymətləndiriciyə həmin vəsait ipoteka saxlayan tərəfindən ödənilsin.

Sahibə xanım, bildirmək istəyirəm ki, bu, ikinci oxunuşdur. Birinci oxunuşdan sonra hörmətli həmkarlarımız tərəfindən heç bir təklif, irad daxil olmamışdır. Xahiş edirəm, millət vəkilləri qanuna müsbət səs versinlər. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Əli müəllim, Sizin komitədə də baxılıb. Sözünüz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, münasibət bildirin.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Razi müəllim, buyurun.

**R.Nurullayev.** Hörmətli Sədr, hörmətli millət vəkilləri, vaxtınızı çox almayacağam. Çıxışım cəmi 6 sözdən ibarətdir. Mən təəssüf edirəm, Fəzail müəllim, Sizə heç yaraşdırmadım.

**Sədrlik edən.** Hörmətli həmkarlar, qanun layihəsini

maddələr üzrə səsə qoyuram. Layihə 3 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, münasibət bildirin.
**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.
**Sədrlik edən.** Çox sağ olun, 1-ci maddə qəbul edildi.
2-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.
**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.
**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.
İndi isə mən 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

İndi isə hörmətli həmkarlar, qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov.** 18 deputat lehinə səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***<u>8 may 2020-ci il</u>***

**Malik Həsənov.** Hörmətli Sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Bu gün müzakirəmizə təqdim edilən Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında təklif edilən dəyişikliklərlə bağlı qeyd etmək istərdim ki, təklif olunan dəyişikliklər münasibətlərin dəqiqləşdirilməsi və mövcud vəziyyətə uyğunlaşdırılması baxımından əhəmiyyətlidir, aktualdır.

Bununla belə, bizə qiymətləndiricilərin müəyyənləşdirilməsi zamanı icra məmurlarının bir sıra maddi maraqlardan çıxış edərək daim eyni qiymətləndirici ilə işləməsi hallarının mövcudluğu faktları məlum olduğundan hesab edirəm ki, qiymətləndiricinin fəaliyyəti xüsusi icazə verilən fəaliyyətlər sisteminə aid edilməli, onlar üçün aydın və birmənalı yozula bilən fəaliyyət meyarları müəyyənləşdirilməli, icra məmurlarının qiymətləndiricinin seçilməsindəki fəaliyyət azadlığı qanunvericilikdə məhdudlaşdırılmalı, bu prosedurun aydın, işlək bir mexanizmi düşünülməlidir.

Təklif etmək olar ki, qiymətləndiricini əmlakın hərraca çıxarılması haqqında qərar qəbul edən məhkəmələr seçsin. Burada digər bir variant kimi, bir icra məmurunun il ərzində hər hansı bir qiymətləndiricini seçməsinə limitin qoyulmasıdır. Başqa bir variant əmlakın qiymətləndiril-
ıdən narazı qalmaq hallarının və bu problemlə bağlı
yeni məhkəmə çəkişmələrinin baş verməməsi üçün qanunda nəzərdə tuta bilərik ki, icra məmuru əmlakın qiymətləndirilməsi zamanı ən azı iki paralel qiymətləndirici

seçsin. Əks halda icra məmurlarının maraqları naminə qiymətləndiricilərlə işbirliyi qurması hallarına rast gəlməkdə davam edəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Fatma Yıldırım.** Hörmətli Sədr, hörmətli millət vəkilləri. Bu gün Ermənistanın Azərbaycanın dilbər guşəsi, mədəniyyətimizin beşiyi olan Şuşa şəhərini işğal etməsindən 28 il ötür. Şuşa işğal edilərkən burada 25 min nəfərədək əhali yaşayırdı. Şəhərin müdafiəsi zamanı 195 dinc sakin şəhid olub, 165 nəfər yaralanıb. Ermənilər tərəfindən əsir götürülərək Şuşa həbsxanasında saxlanılan 114 azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirilib. Şəhərin 58 sakini itkin düşüb. Qədim tarixə malik olan Şuşa yaddaşımızda zəngin tarixi keçmişi və mədəniyyət abidələri, yetişdirdiyi məşhur şəxsiyyətləri ilə tanınan məkan kimi dərin izlər buraxıb. "Şərqin konservatoriyası" adlandırılan Şuşa Azərbaycanın bir sıra görkəmli musiqiçilərinin, böyük bəstəkarların və sənətkarlarının vətənidir. Bu torpaqda olan qədim memarlıq və incəsənət abidələrini sadalamaqla qurtarmaz. Təəssüf ki, işğal nəticəsində ermənilər Şuşada bütün mədəniyyət abidələrini məhv ediblər.

Ümummilli lider Heydər Əliyev Şuşanın tarixi əhəmiyyətini belə səciyyələndirirdi: "Şuşa Azərbaycanın ən aziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük tarixi bir abidədir.

Bu gün işğalçı Ermənistan diplomatik cəbhədə, informasiya müharibəsində Azərbaycana uduzur. Bu müstəvidə mübarizəmizi davam etdirməliyik. Biz millət vəkillərinin,

əsas vəzifələrindən biri də Qarabağ həqiqətlərini, Ermənistanın işğalçılıq siyasətini tarixi və elmi əsaslarla daha geniş şəkildə dünyaya çatdırmaqdan ibarətdir. Çünki beynəlxalq ictimaiyyət tarixi və elmi əsaslı məlumatlara üstünlük verir. Xaricdə diaspor fəaliyyəti ilə məşğul olduğum zamanlarda bu reallığın şahidi olmuşam.

Ona görə də, düşünürəm ki, bu istiqamətdə daha sistemli fəaliyyət göstərmək üçün Dağlıq Qarabağ problemi üzrə araşdırmalar institutu yaradılmalıdır. Buraya yerli və xarici mütəxəssislər, alimlər, tarixçilər cəlb olunmalıdır. Belə bir elmi institut və ya mərkəz Qarabağın tarixini geniş şəkildə araşdıraraq dünya ictimaiyyətinə əhəmiyyətli elmi-tarixi əsərlər təqdim etməlidir. Əlbəttə, indiyə qədər bu istiqamətdə alimlərimiz tərəfindən bir sıra dəyərli əsərlər yazılıb, nəşr edilib. Bununla belə hesab edirəm ki, belə bir institutun yaradılması vacibdir və ümummilli problemimiz olan bu məsələyə daha da böyük töhfələr verə bilər.

Hörmətli millət vəkilləri, bu gün şuşalılar inanırlar ki, hörmətli Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımız, o cümlədən Şuşamız erməni işğalından azad olunacaq. O torpaqları yenidən qarış-qarış gəzmək və doğma torpağın qoxusunu duymaq bütün xalqımızın arzusudur. Dövlətimiz bu problemin sülh yolu ilə həlli üçün bütün imkanlarını illərdir səfərbər edib, beynəlxalq birlik Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycan xalqı Şuşanın azad olunacağı günü səbrsizliklə gözləyir. Əgər qarşı tərəf sülh yolu ilə torpaqlarımızı tərk etməzsə, müstəqil Azərbaycan Respublikasının qüdrətli ordusu öz gücü ilə bu məsələni həll etməyə qadirdir! Diqqətinizə görə təşəkkür edirəm.